DİNİMİZ MİLLİ-MƏNƏVİ SƏRVƏTİMİZDİR. Heydər Əliyev

www.scwra.gov.az

# CƏMİYYƏT və DİN

TƏSİSÇİ: Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi

№ 03 (332) / MART 2019-CU İL




Multikulturalizm Azərbaycanın dövlət siyasətidir. Azərbaycan dünyada multikulturalizm mərkəzlərindən biri kimi tanınır. Bunun tarixi kökləri var. Əsrlər boyunca Azərbaycan müxtəlif dinlərin və etnik qrupların nümayəndələrinin sülh və əmin-amanlıq şəraitində yaşadığı yer olub. Biz fəxr edirik ki, müstəqilliyimiz bərpa olunandan sonra bu meyil gücləndi. Biz bu ideyaları qlobal arenada təbliğ etməyə çalışırıq. Ona görə də biz çoxsaylı tədbirlər, beynəlxalq konfranslar, mədəniyyətlərarası dialoq forumu, dünya dini liderlərinin forumu, BMT Sivilizasiyalar Alyansının forumu, Bakı Humanitar Forumu və bir çox başqa beynəlxalq tədbirlər təşkil edərək, xüsusilə fərqli fikirlər gördüyümüz zaman əsas diqqəti multikulturalizmlə bağlı məsələlərə yönəldirik. Düşünürəm ki, Azərbaycanın nümunəsi açıq şəkildə nümayiş etdirir ki, multikulturalizm dünyanı inkişaf etdirməyin, gərginlikləri azaltmağın, əməkdaşlığı və qarşılıqlı anlaşmanı gücləndirməyin yeganə yoludur. Azərbaycan nisbətən gənc müstəqil ölkədir. Lakin, biz beynəlxalq ictimaiyyətdən çox güclü dəstək alırıq. Mən buna sübutu olaraq, bir neçə il əvvəl Azərbaycanın 155 ölkənin dəstəyi ilə BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilməsini qeyd edərdim. Bu, onu göstərir ki, beynəlxalq ictimaiyyətin mütləq əksəriyyətinin Azərbaycana böyük dəstəyi və etimadı var. BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü kimi biz təhlükəsizlik və mədəniyyətlərarası dialoqla əlaqədar əhəmiyyətli məsələlərin həllində çox mühüm rol oynadıq. Biz, həmçinin qlobal təhlükəsizlik sahəsində rol oynayırıq. Biz sülhməramlı əməliyyatlarda da iştirak edirik.

**Prezident İlham Əliyev**
Bakıda keçirilmiş VII Qlobal Forumun
açılış mərasimindəki nitqindən
*14 mart 2019-cu il*

## PREZİDENT İLHAM ƏLİYEVİN NOVRUZ BAYRAMI MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA TƏBRİKİ

- Əziz həmvətənlər, mən sizi Novruz bayramı münasibətilə ürəkdən təbrik edirəm. Novruz bayramı xalqımızın sevimli bayramıdır. Əsrlər boyu Azərbaycan xalqı Novruz bayramını qeyd edir. Bu bayramı biz yaxşı nəticələrlə qarşılayırıq. Azərbaycan uğurla və hərtərəfli inkişaf edir. Qarşıda duran bütün vəzifələr icra edilir. Azərbaycan dövləti dərin milli-mənəvi köklər üzərində qurulubdur. Novruz bayramı bizim milli sərvətimizdir.

Keçən Novruz bayramından ötən dövr ərzində bir çox önəmli hadisələr baş vermişdir. Aprel ayında prezident seçkiləri keçirilmişdir və Azərbaycan xalqı yenidən mənə böyük etimad göstərmişdir, böyük dəstək göstərmişdir. Bu dəstəyə və inama görə doğma xalqıma minnətdaram. Mən bu dəstəyi son illər ərzində görülmüş işlərə verilən qiymət kimi qəbul edirəm, eyni zamanda, prezident seçkiləri ərəfəsində elan edilmiş islahatların yeni mərhələsinə göstərilən dəstək kimi qəbul edirəm. Prezident seçkilərindən sonra genişmiqyaslı islahatlar aparılmağa başlanmışdır. Bu islahatların nəticələrini Azərbaycan xalqı artıq görür və bundan sonra da görəcəkdir.

Novruz bayramından iki ay sonra ölkəmizin həyatında çox önəmli hadisə baş vermişdir. May ayında Cənub Qaz Dəhlizinin rəsmi açılışı olmuşdur. Bu, tarixi layihədir. Bu layihənin icrası ölkəmizin uzunmüddətli, dayanıqlı inkişafını təmin edəcək, bizim siyasi və iqtisadi maraqlarımızı qoruyacaq. May ayında digər böyük layihə istifadəyə verildi, biz Ələt Beynəlxalq Dəniz Ticarət Limanının açılışını qeyd etdik. Bu limanın və 2017-ci ildə Bakı-Tbilisi-Qars dəmir yolunun fəaliyyətə başlaması Azərbaycanı Avrasiya məkanında önəmli beynəlxalq nəqliyyat mərkəzinə çevirib. Biz bu gün uğurla Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizlərinin fəaliyyətinə təkan veririk. Azərbaycan hər iki layihədə uğurla fəaliyyət göstərir. Deyə bilərəm ki, bu layihələrdə 10-dan çox ölkə iştirak edir, ancaq yalnız bir ölkə - Azərbaycan həm Şimal-Cənub, həm Şərq-Qərb nəqliyyat dəhlizlərində fəal iştirak edir və bir çox təşəbbüslərin müəllifi olmuşdur.

İyun ayında digər tarixi hadisə baş vermişdir – TANAP qaz kəmərinin açılışı mərasimi keçirilmişdir. Bu layihənin həyata keçirilməsi bütövlükdə Cənub Qaz Dəhlizinin fəaliyyətə başlaması üçün əsas şərtdir. Biz bu tarixi hadisəni uğurla qeyd etdik və bu gün Azərbaycan qazının əlavə həcmi TANAP xətti ilə dünya bazarlarına nəql edilir.

Biz keçən il üçüncü peyki orbitə buraxdıq və bir daha göstərdik ki, texnoloji baxımdan Azərbaycan çox uğurla, sürətlə inkişaf edir. Kosmik sənayenin inkişafı bizim prioritetlərimizdən biridir.

Keçən il biz regionların sosial-iqtisadi inkişafına dair üçüncü Dövlət Proqramının icrasını təmin etdik. Proqram artıqlaması ilə icra edildi və üç proqramın icrası böyük dəyişikliklərə gətirib çıxardı. Biz demək olar ki, bütün infrastruktur layihələrimizi yenidən qurduq. Azərbaycan infrastruktur baxımından çox sürətlə inkişaf edir. Təkcə onu demək kifayətdir ki, biz üç proqram çərçivəsində elektrik enerjisini ixrac etməyə başlamışıq, ölkə daxilində təminat tam təşkil edilir. Baxmayaraq ki, əvvəlki illərdə biz idxaldan asılı idik.

davamı səh. 3



## AZƏRBAYCANIN BİRİNCİ VİTSE-PREZİDENTİ MEHRİBAN ƏLİYEVA ROMA PAPASI FRANSİSKƏ TƏBRİK MƏKTUBU ÜNVANLAYIB

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva Roma Papası Fransisk Həzrətlərinə Tacqoyma Gününün ildönümü münasibətilə təbrik məktubu göndərib.

Məktubda Müqəddəs Taxt-Tac ilə Azərbaycan arasında əlaqələrin yüksək səviyyədə olması vurğulanıb, ikitərəfli əməkdaşlığın dinlərarası və mədəniyyətlərarası dialoqun möhkəmləndirilməsinə, ümumdünya mədəni irsinin qorunmasına gələcəkdə də böyük töhfələr verəcəyinə ümid ifadə edilib.

# ABŞ ETNİK ANLAŞMA FONDUNUN PREZİDENTİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ 4-7 MART TARİXLƏRİNDƏ ÖLKƏMİZDƏ SƏFƏRDƏ OLUB



***Martın 4-də*** Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ABŞ Etnik Anlaşma Fondunun prezidenti Mark Şnayerin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Mark Şnayer dinlər və mədəniyyətlərarası dialoqun təşviqi, müxtəlif dini, etnik icmaların sülh şəraitində birgə yaşaması baxımından Azərbaycanın nümunəvi dövlət olduğunu və dünyada bu işə öz töhfəsini verdiyini bildirib.

Dövlətimizin başçısı qeyd edib ki, multikulturalizm və müxtəlif etnik, dini icmaların Azərbaycanda dinc yanaşı yaşamalarının təmin edilməsi dövlət siyasətidir və eyni zamanda, xalqımızın əsrlər boyu yaşatdığı həyat tərzidir.

Söhbət zamanı dinlər, mədəniyyətlər və sivilizasiyalararası dialoqun möhkəmlənməsi və dünyada təşviq edilməsi işində Azərbaycanda böyük önəm daşıyan beynəlxalq tədbirlərin keçirilməsi ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparılıb.



Görüşdə Azərbaycan-ABŞ ikitərəfli münasibətlərinin uğurla inkişaf etdiyi qeyd olunub və ABŞ Etnik Anlaşma Fondunun bu işə töhfə verdiyi vurğulanıb.

Həmin gün nümayəndə heyəti Fəxri Xiyabana gələrək xalqımızın Ümummilli Lideri Heydər Əliyevin xatirəsini yad edib, məzarı önünə gül dəstələri qoyublar. Eyni zamanda görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi anılıb, məzarı üzərinə tər güllər düzülüb.

Daha sonra Şəhidlər xiyabanını ziyarət edən qonaqlar Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının, o cümlədən Azərbaycanın Milli Qəhrəmanı, yəhudi əsilli Albert Aqarunovun xatirəsini anaraq məzarları üzərinə tər çiçəklər düzüblər.





Daha sonra nümayəndə heyəti Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) sədri Mübariz Qurbanlı ilə görüşüb.

Qonaqları salamlayan Dövlət Komitəsinin sədri ölkəmizdəki nümunəvi dövlət-din münasibətləri, tolerantlıq mühiti, DQİDK-nın fəaliyyət istiqamətləri barədə danışıb. Formalaşmış dini tolerantlıq mühitinin qorunub saxlanılması və daha da möhkəmləndirilməsi istiqamətində görülən işlər barədə məlumat verən Mübariz Qurbanlı ölkəmizdə 32-si qeyri-islam təmayüllü olmaqla 908 dini qurumun dövlət qeydiyyatından keçdiyini deyib və respublikamızda 14 kilsə, 7 sinaqoqun fəaliyyət göstərdiyini qeyd edib. Mütəmadi olaraq müxtəlif dinlərə məxsus ibadətgahların inşa və bərpa edildiyini, dini icmalara maliyyə yardımları ayrıldığını vurğulayıb.

Görüş zamanı Azərbaycan həqiqətləri barədə də danışan Mübariz Qurbanlı Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi nəticəsində işğal olunmuş torpaqlarımızda dini-tarixi abidələrin məhv edildiyini, bir qisminin isə erməniləşdirildiyini diqqətə çatdırıb.

Fondun yaradıcısı və rəhbəri ravvin Mark Şnayer səmimi qəbula görə minnətdarlığını bildirib. “İqls Vinqs” yevan-gelik təşkilatının icraçı direktoru, yepiskop Robert Störns isə Azərbaycanda mövcud olan dinlərarası harmoniyanın, qarşılıqlı etimad mühitinin, bu sahədə əldə edilən nailiyyətlərin artıq bütün dünyada etiraf edilən həqiqət olduğunu söyləyib.

Sonda qonaqlara DQİDK-nın nəşr etdirdiyi, Azərbaycanda mövcud olan multikulturalizm və tolerantlıq ənənələrindən, eləcə də işğal olunmuş ərazilərimizdə vandalizm hərəkətlərinə məruz qalan tarixi-dini abidələrdən bəhs edən kitablar təqdim edilib.

***Martın 5-də*** nümayəndə heyəti Qafqaz Müsəlmanları İdarəsinin sədri şeyxülislam Allahşükür Paşazadə ilə görüşdə olub.

Söhbət zamanı bildirilib ki, ölkəmizdə bütün dinlərin və millətlərin nümayəndələri əsrlər boyu heç bir ayrı-seçkiliyə məruz qalmadan birlikdə yaşayıblar və bu gün də yaşamaqdadırlar. Azərbaycan dünyəvi dövlət olmasına baxmayaraq, dini etiqadından asılı olmayaraq, bütün vətəndaşlara dövlət tərəfindən diqqət və qayğı göstərilir. Dini icmaların fəaliyyətinin yaxşılaşdırılması, dini maarifçilik işinin genişləndirilməsi üçün hər il dövlət tərəfindən maliyyə yardımı ayrılır.

***Martın 6-da*** ABŞ-ın yəhudi və yevangelist xristian icmasının üzvlərindən ibarət nümayəndə heyəti Bakıda yerləşən dini ibadət yerləri və yəhudi məktəbi ilə tanış olublar.

Heydər məscidində olan nümayəndə heyətinə məlumat verilib ki, 2014-cü il dekabrın 26-da istifadəyə verilən məscid 12 min kvadratmetr sahədə salınıb. Məscidin fasadı Şirvan-Abşeron memarlıq üslubunda xüsusi daşlarla üzlənib, burada 95 metr hündürlüyündə 4 minarə inşa olunub. Əlavə edilib ki, məsciddə qılınan vəhdət namazları nəinki Azərbaycan, eləcə də bütün dünya üçün olduqca gözəl ənənənin əsasını qoyub.

Daha sonra nümayəndə heyəti Bakıda yerləşən “Xabad-Or-Avner” yəhudi məktəbi ilə tanış olublar. Qonaqlara təhsil mərkəzinin “Tolerantlığın ünvanı – Azərbaycan” layihəsi çərçivəsində Heydər Əliyev Fondu və “Or-Avner” Beynəlxalq Fondu tərəfindən inşa edilməsi barədə məlumat verilib. Qeyd olunub ki, yəhudi məktəbinin açılışında Azərbaycan Prezidenti İlham Əliyev, ölkəmizin birinci xanımı Mehriban Əliyeva və MDB Yəhudi İcmaları Federasiyasının və “Or-Avner”

davamı səh. 3

# PREZİDENT İLHAM ƏLİYEVİN NOVRUZ BAYRAMI MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA TƏBRİKİ

əvvəli səh. 1

Biz qazlaşdırmanı 95 faizə çatdırmışıq və bu, dünya miqyasında ən böyük, ən yüksək göstəricilərdən biridir. Şəhərlərimizin əksəriyyətinə təmiz içməli su xətləri çəkildi və bu proses davam etdirilir. On beş min kilometr yeni yol çəkildi və Davos Ümumdünya İqtisadi Forumunun hesablamalarına görə yol infrastrukturunun səviyyəsi, keyfiyyəti baxımından Azərbaycan dünya miqyasında 34-cü yerdədir. Sosial infrastruktur obyektləri inşa olundu, 3200-dən çox məktəb, 640-dan çox tibb müəssisəsi tikildi və ya yenidən quruldu. İki milyondan çox yeni iş yeri yaradılmışdır. Əhali isə 1,6 milyon artmışdır.

Bizim beynəlxalq mövqelərimiz möhkəmlənir. Azərbaycan bu gün bir çox ölkələrlə çox səmərəli, işgüzar, ikitərəfli münasibətlər qurub. Bir çox hallarda Azərbaycan çoxtərəfli əməkdaşlıq formatının təşəbbüskarıdır. Qonşu dövlətlərlə əlaqələrimiz yeni mərhələyə qədəm qoyub. Hər bir ölkə üçün qonşularla münasibətlərin inkişafı xüsusi əhəmiyyət daşıyır. Çox şadam ki, biz qonşu ölkələrlə səmərəli, işgüzar, qarşılıqlı hörmət əsasında münasibətlər qura bildik. Müsəlman ölkələri ilə əlaqələrimiz inkişaf edir və İslam Əməkdaşlıq Təşkilatı Azərbaycanın bu sahədəki fəaliyyətini yüksək qiymətləndirir. İslam həmrəyliyinə verdiyimiz töhfə bütün müsəlman aləmində yüksək qiymətləndirilir.

Keçən ilin yay aylarında Avropa İttifaqı ilə tərəfdaşlıq prioritetləri sənədi paraflandı. Bu, çox önəmli sənəddir. Xüsusilə nəzərə alsaq ki, orada Azərbaycanın ərazi bütövlüyü, suverenliyi, sərhədlərin toxunulmazlığı ilə bağlı xüsusi paraqraflar var, xüsusi fikirlər əks olunub. Bu, əlbəttə ki, çox önəmli məsələdir, xüsusilə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli üçün bunun çox böyük əhəmiyyəti var.

Münaqişənin həllinə gəldikdə, Azərbaycanın mövqeyi dəyişməz olaraq qalır. Bu münaqişə yalnız ölkəmizin ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır. Dağlıq Qarabağ bizim tarixi diyarımızdır və münaqişənin tezliklə həlli yalnız beynəlxalq hüququn norma və prinsipləri əsasında olmalıdır. Bilirsiniz ki, Ermənistan tərəfi danışıqlar formatının dəyişdirilməsi ilə bağlı məsələlər qaldırıb. Ancaq təbii ki, Azərbaycan bunu qəbul edə bilməz. Eyni zamanda, Minsk qrupunun həmsədr ölkələrinin səfirləri - Amerika, Fransa, Rusiyanın nümayəndələri ciddi bəyanat verərək bildirdilər ki, format dəyişməz olaraq qalmalıdır. Həmçinin Avropa İttifaqının yüksək vəzifəli şəxsləri oxşar bəyanatla çıxış etmişlər. Yəni, bu, Ermənistana birmənalı ciddi siqnaldır, eyni zamanda, onu göstərir ki, Azərbaycanın mövqeyi daha da böyük dəstək qazanır.

Münaqişənin həlli regionda sülhün, sabitliyin təmin olunmasına gətirib çıxaracaq. Əlbəttə, Azərbaycan çalışır və çalışacaq ki, bu məsələ tezliklə ancaq beynəlxalq hüquq norma və prinsipləri əsasında, ölkəmizin ərazi bütövlüyü çərçivəsində öz həllini tapsın.

Biz bununla bərabər, əlbəttə ki, öz hərbi gücümüzü artırırıq. Ötən il keçirilmiş iki hərbi parad bizim hərbi gücümüzü bütün dünyaya nümayiş etdirib. Bu il və bundan sonrakı illərdə biz ordu quruculuğu üçün nə lazımsa onu da edəcəyik. Bizim hərbi hissələrimizin demək olar ki, mütləq əksəriyyəti yenidən qurulub. Azərbaycan Ordusu ən müasir texnika ilə təchiz edilir və döyüş qabiliyyətimiz gündən-günə artır. Bu gün Novruz bayramını, o cümlədən Cocuq Mərcanlıda qeyd edirlər. Cocuq Mərcanlının qurulması, bərpası, yenidən oraya həyatın qayıtması bizim tarixi nailiyyətimizdir. Cocuq Mərcanlı bu gün Azərbaycan xalqının əyilməz ruhunun təzahürüdür.

Bildiyiniz kimi, bu gün Azərbaycan islahatların yeni mərhələsinə qədəm qoyub. İslahatlar hərtərəflidir. İqtisadi islahatlar bizə imkan verir ki, əlavə gəlirlər əldə edilsin və büdcə gəlirlərimiz artıb. Bu ilin yanvar-fevral aylarında büdcə daxilolmaları 150 milyon manat səviyyəsində artıbdır. Bu, bizə imkan verir ki, həmin vəsaiti sosial layihələrə yönəldək. Qeyd etdiyim kimi, ciddi islahatlar üzərində işlər keçən il prezident seçkilərindən sonra başlamışdır. Bu gün isə çox ciddi sosial paket təsdiqləndi və bu sosial təşəbbüslər nəticəsində 3 milyondan çox insan öz maddi vəziyyətini, maliyyə vəziyyətini yaxşılaşdırmış olur. Bildiyiniz kimi, minimum əməkhaqqı və minimum pensiya təxminin 40 faiz artmışdır. Sosial müavinətlər təqribən orta hesabla iki dəfə artmışdır. Köçkünlərə verilən müavinət 50 faiz artmışdır. Tələbələrin təqaüdləri, şəhid ailələrinə verilən müavinətlər, digər sosial ödənişlər artıb. Çoxmənzilli binaların sənədləşdirilməsi ilə bağlı müvafiq Fərman imzalanıb. Problemli kreditlərin həlli ilə bağlı çox ciddi Fərman imzalanıb. Onu deyə bilərəm ki, bu Fərmanın dünyada bənzəri yoxdur və bu Fərman 800 min insanı əhatə edir. Yəni, Azərbaycan dövləti bir daha göstərir ki, öz vətəndaşının yanındadır.

Bizim iqtisadi gücümüz artdıqca sosial məsələlər daha da geniş miqyasda öz həllini tapacaqdır. İqtisadi artım isə göz qabağındadır. Bu ilin iki ayında ümumi daxili məhsul 3 faiz artmışdır. Bu, son illər ərzində ən yüksək göstəricidir. Sənaye istehsalı 4,6 faiz artmışdır. Bu da yaxşı göstəricidir. Ancaq ən böyük artım qeyri-neft sektorunda sənaye istehsalına aiddir. Burada artım 15,5 faizdir. Hesab edirəm ki, bu, dünya rekordudur və son illər ərzində aparılan düşünülmüş ciddi iqtisadi islahatlar siyasətinin nəticəsidir.

İslahatlar dərinləşəcək. İslahatlara alternativ yoxdur. Siyasi islahatlar, iqtisadi islahatlar, sosial sahədə islahatlar, məhkəmə-hüquq sistemində islahatlar, - artıq müvafiq göstərişlər verilib və sənədlər paketi hazırlanır, - təhsil, səhiyyə sahələrində, hər bir sahədə, Azərbaycan yeni dövrə qədəm qoyub. Azərbaycan yeniləşir, Azərbaycan güclənir və müasirləşir. Biz dərin milli-mənəvi köklər üzərində güclü dövlət qurmuşuq. Azərbaycan tarixdə heç vaxt indiki qədər güclü olmamışdır. Ancaq o demək deyil ki, əldə edilmiş bu nailiyyətlərlə kifayətlənməliyik. Əldə edilmiş nailiyyətlər bizi gələcəyə daha da nikbinliklə baxmağa həvəsləndirir, buna sövq edir.

Mən tam əminəm ki, bu ili biz uğurla başa vuracağıq. Bundan sonra Azərbaycan yalnız və yalnız inkişaf və tərəqqi yolu ilə gedəcək, vətəndaşların sosial vəziyyəti ildən-ilə yaxşılaşacaq.

Əziz həmvətənlər, sizi bu gözəl Bahar bayramı münasibətilə bir daha ürəkdən təbrik edirəm. Sizə cansağlığı, xoşbəxtlik arzulayıram. Bayramınız mübarək olsun.

# ABŞ ETNİK ANLAŞMA FONDUNUN PREZİDENTİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ 4-7 MART TARİXLƏRİNDƏ ÖLKƏMİZDƏ SƏFƏRDƏ OLUB






əvvəli səh. 2

Beynəlxalq Fondunun prezidenti Lev Levayev iştirak ediblər. 450 yerlik məktəb bütün lazımi avadanlıqlarla təmin edilib. Burada yəhudi mədəniyyətinin əsasları da tədris olunur.

Sonra "Müqəddəs Jen-Mironosits" rus pravoslav kafedral kilsəsi və "Bakirə Müqəddəs Məryəm" katolik kilsəsini ziyarət edən nümayəndə heyətinin üzvləri dövlətimizin dini konfessiyalar üçün yaratdığı şəraiti yüksək qiymətləndiriblər.

***Martın 7-də*** nümayəndə heyətinin üzvləri Qubada olublar.

Quba Rayon İcra Hakimiyyətində nümayəndə heyəti ilə keçirilən görüşdə icra hakimiyyətinin başçısı Ziyəddin Əliyev Qubanın tarixi, son dövrlərdə keçdiyi inkişaf yolu, burada yaşayan azsaylı xalqlar, rayondakı tolerantlıq mühiti haqqında ətraflı məlumat verib. Bildirilib ki, Azərbaycan dövləti əhalisinin çoxmillətli olmasını özünün tarixi nailiyyəti hesab edir və milli-mədəni rəngarəngliyi cəmiyyətin zənginliyinə xidmət edən amil kimi dəyərləndirir.

Görüşdən sonra nümayəndə heyəti Qubada dağ yəhudilərinin yığcam yaşadıqları Qırmızı qəsəbədəki "Giləki" sinaqoqu ilə yaxından tanış olublar. Qonaqların diqqətinə çatdırılıb ki, dağ yəhudilərinin Quba ərazisində məskunlaşmasının tarixi XVIII əsrin ortalarına təsadüf edir. Quba xanlığına Fətəli xanın rəhbərlik etdiyi dövrlərdə bütün ətraf ərazilərdə yaşayan yəhudilər buraya köçməyə başlayıblar. Həmin vaxt salınan yəhudi məhəllələrində 10-dan artıq sinaqoq inşa olunub. Qırmızı qəsəbədə yəhudilərin dini icması və milli mədəniyyət mərkəzi fəaliyyət göstərir.

Quba Soyqırımı Memorial Kompleksini ziyarət zamanı nümayəndə heyəti ermənilərin törətdikləri soyqırımı haqqında ətraflı məlumatlandırılıblar. Diqqətə çatdırılıb ki, Quba soyqırımı məzarlığı 2007-ci il aprelin 1-də ərazidə torpaq işləri görülərkən aşkarlanıb. Bundan sonra Azərbaycan Milli Elmlər Akademiyasının Arxeologiya və Etnoqrafiya İnstitutunun əməkdaşları tərəfindən kütləvi məzarlıqda geniş tədqiqat işləri aparılıb. Tədqiqatlar nəticəsində məzarlığın 1918-ci ildə ermənilərin yerli dinc əhaliyə qarşı törətdikləri soyqırımı ilə bağlı olduğu müəyyən edilib.

Ziyarətçilər Quba Soyqırımı Memorial Kompleksinin xatirə kitabına ürək sözlərini yazıb, soyqırımı qurbanlarının xatirəsinə dualar oxuyublar.

# BAKIDA «DİNLƏRARASI VƏ SİVİLİZASİYALARARASI DİALOQDAN ƏMƏKDAŞLIĞA DOĞRU» MÖVZUSUNDA BEYNƏLXALQ KONFRANS KEÇİRİLİB




Martın 5-də Bakıda Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) və Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) birgə təşkilatçılığı ilə "Dinlərarası və sivilizasiyalararası dialoqdan əməkdaşlığa doğru" mövzusunda beynəlxalq konfrans keçirilib.

Konfransda ABŞ-ın ölkəmizdə səfərdə olan nümayəndə heyətinin üzvləri, Kabardino-Balkar Respublikasının müftisi, İmam Əbu Hənifə adına Şimali Qafqaz Universitetinin rektoru, o cümlədən tanınmış dövlət, din və elm xadimləri, dini konfessiya rəhbərləri, hökumətin və parlamentin üzvləri, ictimaiyyət nümayəndələri iştirak ediblər.

Tədbiri giriş sözü ilə açan DQİDK-nın sədri Mübariz Qurbanlı Azərbaycandakı nümunəvi dövlət-din münasibətlərindən danışıb. Bildirib ki, Azərbaycanın dövlət-din münasibətlərində uğurlarının səbəbi dinlə bağlı siyasətin lap başdan sağlam, düzgün istiqamətdə qurulmasıdır. Məhz Ulu Öndər Heydər Əliyevin diqqət və qayğısı nəticəsində ölkəmizdə din sahəsində sabitlik əldə edilib, dövlət-din münasibətləri-nin beynəlxalq hüquq normaları müstəvisində tənzimlənməsi, dini konfessiyalar arasında dözümlülük mühitinin qorunub-saxlanılması və daha yüksək səviyyədə inkişafı istiqamətində böyük işlər görülüb, dini icmaların, ibadət ocaqlarının fəaliyyəti üçün hüquqi-mənəvi şərait yaradılıb. Onun əsasını qoyduğu dövlət-din münasibətləri modeli hazırda Prezidentimiz cənab İlham Əliyev tərəfindən zamanın tələblərinə uyğun olaraq daha da gücləndirilib və elə bir səviyyəyə çatdırılıb ki, artıq bu model dünyada nümunə kimi qəbul olunur.






Dövlət Komitəsinin sədri əlavə edib ki, cənab Prezidentin tapşırığı ilə QMİ-nin nəzdində Bakı Beynəlxalq Dinlərarası və Sivilizasiyalararası Əməkdaşlıq Mərkəzi yaradılıb. Bugünkü konfrans da həmin Mərkəzin xətti ilə indiyədək təşkil edilən beynəlxalq konfransların davamıdır.

Konfransda çıxış edən QMİ-nin sədri Şeyxülislam Allahşükür Paşazadə deyib ki, Azərbaycanda milli və başəri dəyərlərə hər zaman böyük önəm verilib. Ölkəmizdə dini-mənəvi irsə ehtiram, müxtəlif mədəniyyətlərin dialoqu, tolerantlıq ənənələri olduqca yüksək səviyyədədir. "Bu, bizim qürur mənbəyimizdir. Təbii ki, burada siyasi iradə böyük önəm daşıyır. Dövlət-din münasibətlərinin əsasını xalqımızın Ümummilli Lideri Heydər Əliyev qoyub və hazırda yüksək səviyyədə davam və inkişaf etdirilir. Prezident İlham Əliyev dünya miqyasında multikulturalizm ideyasının fəal təbliğatçısı, mədəniyyətlərarası əməkdaşlığa dair "Bakı prosesi"nin müəllifidir",- deyən QMİ sədri vurğulayıb ki, tolerantlıq ənənələrimizin, mədəni-mənəvi irsimizin təbliğində Heydər Əliyev Fondunun da müstəsna xidmətləri vardır. Ölkəmizin birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın yüksək mənəvi dəyərlərə dünya miqyasında ali himayəsi ən yüksək qiymətə layiqdir. Şeyxülislam həmçinin vurğulayıb ki, bu gün bütün problemlərin fövqündə duran sülhün qorunması probleminin həllində, habelə terrorizm, islamofobiya, antisemitizm, ekstremizm və radikalizmin önlənməsində dövlət rəhbərlərinin, ictimai və dini qurum liderlərinin birgə əməkdaşlığı vacibdir.

Çıxışında Azərbaycanda multikulturalizmin ən gözəl formasının mövcud olduğunu söyləyən ABŞ Etnik Anlaşma Fondunun prezidenti Mark Şnayer bildirib ki, bugünkü konfrans Azərbaycandakı dini konfessiyalarla ABŞ-dakı yəhudi və yevangelist xristian icmaları arasında əlaqələrin qurulması və gələcək əməkdaşlığın daha da dərinləşməsi baxımından olduqca əhəmiyyətlidir.

Konfransda çıxış edən Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Millətlərarası münasibətlər, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Etibar Nəcəfov ölkəmizin dövlət-din münasibətləri sahəsində qazandığı uğurlardan danışıb. Bildirib ki, bu, Azərbaycanın dövlət siyasətinin prioritet istiqamətlərindən biridir.

Konfransda həmçinin Milli Məclis sədrinin müavini Bahar Muradova, Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sədri Siyavuş Novruzov, Milli Məclisin Elm və təhsil komitəsinin sədri, Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti, akademik İsa Həbibbəyli, deputatlar Mixail Zabelin və Yevda Abramov, "İqls Vinqs" təşkilatının qurucusu və rəhbəri yepiskop Robert Störns, RF Kabardin-Balkar Respublikasının müftisi Həzrətəli Casayevin məruzələri dinlənilib. Məruzəçilər öz çıxışlarında qeyd ediblər ki, insan hüquq və azadlıqlarının təmin olunması istiqamətində böyük uğurlara nail olan ölkəmiz BMT qarşısında götürdüyü bütün öhdəliklərə, dayanıqlı inkişaf məqsədlərinə yüksək səviyyədə əməl edir. Azərbaycanda həm qanunun aliliyi, həm də ənənələrin möhkəmliyi dini münasibətlərin inkişafına xidmət göstərir.

Konfransın Braziliya, BƏƏ, ABŞ-dan gələn iştirakçıları Teofilo Key Hayaşi Marcelino, Benjamin Riçard, Adam Daniel Mesa çıxış edərək bildiriblər ki, Azərbaycanda dini durum münbit şəraitə və dinlərarası qarşılıqlı ehtiram ruhuna malikdir.

Rus Pravoslav Kilsəsi Bakı və Azərbaycan Yeparxiyasının arxiyepiskopu Aleksandr, Bakı şəhəri Dağ yəhudiləri dini icmasının sədri Milix Yevdayev, Azərbaycan Respublikasında Katolik Kilsəsinin Apostol Prefekturasının yepiskopu Vladimir Fekete, Avropa yəhudilərinin Bakı dini icmasının sədri Aleksandr Şarovski, Alban-Udi Xristian icmasının sədri Robert Mobili, Gürcü yəhudilərinin Bakı dini icmasının sədri Abiq Çaruxçev, Bakı şəhəri Yevangelist Məsihi Baptistlərinin "Aqape" dini icmasının pastoru Samir Sadıqov, Xilaskar Yevangelist Lüteranlarının Bakı dini icmasının sədri Vera Nesterova, Bakı şəhəri "Azərbaycan Bibliya Cəmiyyəti" Xristian dini icmasının sədri Rasim Xəlilov çıxışlarında Azərbaycanda bütün dini konfessiya nümayəndələrinə yaradılan bərabər hüquqlu şəraitdən, dini sahəyə göstərilən dövlət qayğısından bəhs ediblər. Onlar Azərbaycanın tolerantlıq və multikulturalizm sahəsindəki təcrübəsinin bütün dünyada təbliğ və təşviq edilməsinin vacibliyini diqqətə çatdırıblar.

Sülh, əməkdaşlıq naminə bir araya gələn ölkələr və dinlər arasında ünsiyyət platformasının daha da dərinləşdirilməsi istiqamətində müzakirələrlə başa çatan konfransdan sonra yerli və beynəlxalq mətbuat nümayəndələri üçün brifinq keçirilib, jurnalistləri maraqlandıran suallar ətraflı cavablandırılıb.

Qeyd edək ki, konfrans çərçivəsində Azərbaycanın tarixi-dini abidələrinin fotolarından ibarət sərgi keçirilib.

# BDU-DA "PREZİDENT İLHAM ƏLİYEVİN SİYASƏTİ, GÜCLÜ AZƏRBAYCAN, DAYANIQLI SABİTLİK" MÖVZUSUNDA TƏDBİR BAŞ TUTUB

Bakı Dövlət Universitetində (BDU) "Prezident İlham Əliyevin siyasəti: güclü Azərbaycan, dayanıqlı sabitlik" mövzusunda konfrans təşkil olunub.

Tədbirdə təhsil nazirinin müavini Firudin Qurbanov Ümummilli Lider Heydər Əliyev siyasətinin uğurlu nəticələrindən danışıb, Ulu Öndərin ideyalarının Prezident İlham Əliyev tərəfindən qətiyyətlə həyata keçirildiyini bildirib.



Nazir müavini Ümummilli Lider Heydər Əliyevin siyasəti nəticəsində Qərbin iri neft şirkətləri ilə uğurlu danışıqlar aparılaraq 1994-cü il sentyabrın 20-də "Əsrin müqaviləsi"nin imzalandığını xatırladıb. Bu sazişin, eləcə də həyata keçirilən digər böyük layihələrin müstəqil Azərbaycanın inkişafında mühüm rolunu vurğulayıb.

Firudin Qurbanov Prezident İlham Əliyevin rəhbərliyi altında respublikamızda ictimai-siyasi sabitliyin daha da möhkəmləndiyini, ölkənin sosial-iqtisadi inkişafının daha da yüksəldiyini qeyd edib. O, ölkə rəhbərinin şəhid ailələri, müharibə veteranları və əlilləri, məcburi köçkünlərin problemlərinin həlli, minimum əməkhaqqının, tələbələrin və doktorantların təqaüdlərinin artırılması, fiziki şəxslərin problemli kreditlərinin həlli ilə bağlı imzaladığı sərəncamları, gənclərin sosial, təhsil, karyera və mədəni inkişaf məsələlərinin həllini təmin etmək məqsədilə gördüyü genişmiqyaslı işləri konfrans iştirakçılarının diqqətinə çatdırıb.

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Hicran Hüseynova Prezident İlham Əliyevin daxili və xarici siyasətinin əhəmiyyətindən danışıb. Bildirib ki, müasir müstəqil Azərbaycan Respublikası daha da güclənib, dünyada söz sahibi olan dövlətə çevrilib. Prezident İlham Əliyevin uğurlu dövlət idarəçiliyi, aparılan sistemli islahatlar hər bir vətəndaşın rifahının yüksəlməsinə yönəlib. Hicran Hüseynova, həmçinin ailə strategiyası layihəsi və ailə institutunun möhkəmləndirilməsi, qadın və uşaq hüquqlarının müdafiəsi istiqamətində həyata keçirilən tədbirlər və layihələr barədə məlumat verib. Bildirib ki, Azərbaycanda qadın və uşaq hüquqlarının müdafiəsi ilə yanaşı, gender bərabərliyinin təmin edilməsi, məişət zorakılığının qarşısının alınması, qadın sahibkarlığının inkişaf etdirilməsi məqsədilə mühüm dövlət sənədləri qəbul olunub.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu dövlət-din münasibətləri modelinin Prezident İlham Əliyev tərəfindən zamanın tələblərinə uyğun olaraq daha da gücləndirilməsi və dünyada nümunə kimi qəbul edilməsindən danışıb. Eyni zamanda, Azərbaycanın dünyada həmrəyliyin inkişafına dəstəyi, ölkəmizdə multikulturalizm və İslam həmrəyliyi, bütün dinlərin nümayəndələrinin sülh və tolerant şəraitdə yaşaması barədə fikirlərini konfrans iştirakçıları ilə bölüşüb.

Gənclər və idman nazirinin müavini İntiqam Babayev, BDU-nun professoru Nuru Məmmədov, filologiya fakültəsinin tələbəsi Əliqulu Bədirli və digər çıxış edənlər də Prezident İlham Əliyev siyasətinin əhəmiyyətindən, respublikamızda gənclərə, onların təhsilinə göstərilən diqqət və qayğıdan danışıblar.

# İSTANBULDA İƏT-İN XARİCİ İŞLƏR NAZİRLƏRİ ŞURASININ NÖVBƏDƏNKƏNAR İCLASI OLUB

Türkiyənin İstanbul şəhərində İslam Əməkdaşlıq Təşkilatının (İƏT) Xarici İşlər Nazirləri Şurasının növbədənkənar iclası keçirilib.

İclasda İslam ölkələrinin dövlət və hökumət nümayəndələri iştirak ediblər. 42 ölkənin nümayəndəsinin qatıldığı iclasda ölkəmizi Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlının rəhbərlik etdiyi geniş tərkibli nümayəndə heyəti təmsil edib.

"Yeni Zelandiyada iki məscidə terror hadisəsi, müsəlmanlara qarşı nifrət və dözümsüzlüklə mübarizə" mövzusunda keçirilən növbədənkənar iclasın açılışında Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan da iştirak edib. Prezident ötən həftənin cümə günü Yeni Zelandiyada baş verən qanlı hadisə ilə bağlı İƏT-in Xarici İşlər Nazirləri Şurasının iclasının keçirilməsinin və bu məsələ ilə bağlı dünyaya mesaj verilməsinin zəruriliyini diqqətə çatdırıb. Prezident Türkiyənin İslam dünyasına qarşı planlı şəkildə həyata keçirilən, bütün insanlığa zidd hadisələrə biganə qalmayacağını vurğulayıb.




Prezident Ərdoğan təşkilatın bu toplantısının vacibliyini ifadə edərək, iclasda bir sıra məsələlərin araşdırılacağını və yekun qərarların veriləcəyini bildirib.

Tədbirdə çıxış edən Mübariz Qurbanlı bu müzakirələrə şərait yaratdığına və İslam dünyasında baş verən hadisələrə yüksək həssaslıq nümayiş etdirdiyinə görə Türkiyə Respublikasına dərin minnətdarlığını çatdırıb.

M.Qurbanlı bildirib ki, Azərbaycan terrordan əziyyət çəkən bir ölkə kimi dünyada baş verən terrorizmi beynəlxalq sülh üçün ən ciddi təhlükələrdən, müasir bəşəriyyətin üzləşdiyi ən amansız bəlalardan biri hesab edir. Eyni zamanda, biz bu ümumbəşəri bəlanı doğuran səbəblər və onun yayılmasına şərait yaradan şərtlərlə də ciddi mübarizə aparmalıyıq. Həll olunmamış silahlı münaqişələr, işğalçı siyasət, qeyri-humanist və nifrət təbliğatının yayılması, irqçilik, islamofobiya və ksenofobiyanın digər formaları xüsusi narahatlığımıza səbəb olmalıdır.

Komitə sədri qeyd edib ki, dünyanın bir çox yerində davam edən silahlı münaqişələr, baş verən terror hücumları, eləcə də dünyanın müxtəlif yerlərində islamofobiya, dözümsüzlük, irqçilik və ksenofobiya kimi yüksələn trendlər beynəlxalq sülh və təhlükəsizliyin təmin olunmasına yönəlmiş hazırkı beynəlxalq mexanizmlərin yetərsizliyini nümayiş etdirir. Buna görə də, coğrafiyamızdakı münaqişələrin həllinə, terrorizmə qarşı mübarizədə qəti mövqeyə, bütün üzv dövlətlərin ərazi bütövlüyü və suverenliyinin qorunmasına yönələn birgə səylərimiz çox vacibdir.

Ermənistanın Azərbaycan torpaqlarının 20 faizini hələ də işğal altında saxladığını xatırladan M.Qurbanlı bildirib ki, təkcə 1989-1994-cü illər ərzində münaqişə dövründə Ermənistanın ölkəmizə qarşı təşkil etdiyi və bilavasitə mülki əhaliyə qarşı yönəlmiş terror kampaniyası nəticəsində minlərlə insan həlak olub və yaralanıb. Komitə sədri deyib: "Heç şübhəsiz ki, bu terrorizmin kulminasiyası, 1992-ci ilin 26 fevral tarixində Azərbaycanın Xocalı şəhərində baş vermiş soyqırımı cinayətidir. Bir gecədə erməni silahlı birləşmələri tərəfindən həyata keçirilmiş qırğın nəticəsində 106 qadın, 63 uşaq və 70 yaşlı insan olmaqla 613 nəfər mülki əhali qətlə yetirilib, 1275 sakin girov götürülüb, 150 nəfərin taleyi isə naməlum qalmaqdadır".

Toplantı qapalı iclaslarla işini davam etdirib. Sonda İstanbul Bəyannaməsi qəbul olunub.

# ŞAMAXIDA “MÜASİR ÇAĞIRIŞLAR: DİNİ DURUM VƏ VƏZİFƏLƏR” MÖVZUSUNDA REGİONAL KONFRANS KEÇİRİLİB

Martın 12-13-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi və Şamaxı Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə “Müasir çağırışlar: dini durum və vəzifələr” mövzusunda regional konfrans təşkil olunub.

Şamaxı rayon Heydər Əliyev Mərkəzində keçirilən konfransda Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi və Şamaxı Rayon İcra Hakimiyyətinin rəhbər işçiləri, Qafqaz Müsəlmanları İdarəsinin nümayəndələri, yerli hüquq-mühafizə orqanlarının rəhbərləri, ictimaiyyət fəalları, həmçinin dini icma sədrləri, din xadimləri və ilahiyyatçılar iştirak ediblər.

Tədbiri giriş sözü ilə açan rayon icra hakimiyyətinin başçısı Tahir Məmmədov Ümummilli Liderimizin əvəzsiz siyasi xəttini uğurla və uzaqgörənliklə davam etdirən Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə dövlət quruculuğu prosesləri və dövlət-din münasibətlərinin tənzimlənməsi istiqamətində mühüm addımlar atıldığını bildirib. Qeyd edib ki, ölkəmizdə qədim tarixə malik dini məbədlərimizin bərpası və xalqımızın istifadəsinə verilməsi sahəsində ardıcıl operativ tədbirlərin həyata keçirilməsi dövlətimizin məqsədyönlü siyasətinin tərkib hissəsidir. Tahir Məmmədov son bir ayda Prezident İlham Əliyevin baş verən zəlzələnin fəsadlarının aradan qaldırılması ilə əlaqədar iki dəfə Şamaxıya gələrək sakinlərlə görüşməsinin ictimaiyyət tərəfindən minnətdarlıqla qarşılandığını vurğulayıb, rayonda dini durumun sabit olduğunu və bu istiqamətdə məqsədyönlü tədbirlərin həyata keçirildiyini diqqətə çatdırıb.




Azərbaycandakı nümunəvi dövlət-din münasibətlərindən söz açan Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı qeyd edib ki, Ulu Öndər Heydər Əliyev ölkəyə rəhbərlik etdiyi ilk gündən insan hüquq və azadlıqlarına, xüsusilə vicdan və dini etiqad azadlığının bərqərar olmasına, milli-mənəvi dəyərlərimizin qorunmasına, cəmiyyətin, xüsusən də gənclərin milli-mənəvi dəyərlərə sadiq yetişməsinə böyük önəm verilməyə başlanıb. O bu siyasətin hazırda Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini bildirib. Vurğulanıb ki, dövlət başçısı İslam dininə, eləcə də ölkəmizdə tarixən mövcud olan bir çox dinə, onların müqəddəs abidələrinə tarixi, maddi-mədəni irsin bir hissəsi kimi yanaşır, milli-mənəvi dəyərlərin geniş təbliğinə daim dəstək verir. Son illər ölkədə 200-dən çox məscid inşa olunub, 80-dən artıq məsciddə əsaslı təmir və yenidənqurma işləri aparılıb. Mübariz Qurbanlı Mənəvi Dəyərlərin Təbliği Fondunun və Azərbaycan İlahiyyat İnstitutunun yaradılmasını bu diqqət və qayğının növbəti parlaq nümunəsi kimi səciyyələndirib. Fondun xətti ilə ölkəmizdə mənəvi dəyərləri təbliğ edən şəxslər qismində Qafqaz Müsəlmanları İdarəsi tərəfindən rəsmi olaraq təyinat alan mindən çox din xadiminə maddi dəstək göstərildiyini bildirib.

Ölkəmizdəki dövlət-din münasibətlərinin zəngin milli-tarixi ənənəyə əsaslandığını deyən Komitə sədri dövlətimizin din siyasətinin əsas məqsədinin dini etiqad azadlığının təmin edilməsi, dünyəvi dövlətçilik prinsiplərinin qorunub saxlanılması və dini təəssübkeşliyin dini təkəbbürə, sonra fanatizm və ekstremizmə çevrilməsinin qarşısının alınması olduğunu vurğulayıb. İnsanları birliyə, vəhdətə çağıran dinlərin mahiyyətindən uzaqlaşdırılaraq kimlərinsə əlində radikal, ekstremist, xurafat, antimilli formaya çevrilməsinin yolverilməz olduğunu bildirən Komitə sədri bu kimi xoşagəlməz halların qarşısının alınması istiqamətində bütün bölgələrdə kompleks tədbirlərin həyata keçirildiyini söyləyib.

Daha sonra çıxış edən Qafqaz Müsəlmanları İdarəsinin səlahiyyətli nümayəndəsi Mərəhmət Mustafayev regionlarda keçirilən bu cür konfransların gənc nəslin ənənəvi dini və milli dəyərlərimiz, bu dəyərlərin ümdə prinsipləri haqqında doğru və sağlam mənbələrə əsaslanan biliklərlə təmin olunmasında xüsusi rola malik olduğunu qeyd edib.

Dövlət-din münasibətləri sahəsindəki siyasətin əsas istiqamətləri, multikultural dəyərlərin qorunması, eyni zamanda tolerantlıq mühitinə, milli-mənəvi dəyərlərə bağlılığın gücləndirilməsi barədə müzakirələrlə yekunlaşan konfrans işini martın 13-də “Dini radikalizmlə mübarizə və maarifləndirmə” mövzusunda panellə davam etdirib. “Dini radikalizmlə mübarizə və maarifləndirmə” adlı tədbirdə məktəb direktorları və təlim-tərbiyə işləri üzrə direktor müavinləri, “Həyat bilgisi” fənnini tədris edən müəllimlər, məktəb psixoloqları və ictimaiyyət nümayəndələri iştirak ediblər.

Tədbiri giriş sözü ilə açan Şamaxı Rayon İcra Hakimiyyəti başçısının müavini Gülnisə Ələkbərova bildirib ki, Ulu Öndərimiz Heydər Əliyevin əsasını qoyduğu və bu gün möhtərəm Prezidentimiz cənab İlham Əliyevin davam etdirdiyi dövlət-din münasibətləri sağlam prinsiplər üzərində qurulub. G.Ələkbərova gənclərin dini radikalizm və onun fəsadları barədə məlumatlandırılması istiqamətində bu cür seminar-müşavirələrin əhəmiyyətini yüksək dəyərləndirib.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi sədrinin müavini Gündüz İsmayılov çıxışında dinimizin fundamental dəyərlərinin geniş təbliğ edilməsinin vacibliyinə toxunub. Sədrin müavini maarifləndirmə və gənclərin dini radikalizmlə mübarizədə fəaliyyətlərinin gücləndirilməsi məqsədilə keçirilən bu cür tədbirlərin gələcəkdə də davam etdiriləcəyini bildirib. G.İsmaylov onu da qeyd edib ki, bu görüşlər gənclər arasında milli-mənəvi dəyərlərimizin təbliğinə, dinimizin əsaslarının möhkəmləndirilməsinə və dindarlarla əlaqələrin intensivləşdirilməsinə yönəlib. Azərbaycanda dini müstəvidə sabitlik və əmin-amanlığın bundan sonra da dövlətimiz üçün siyasi baxımdan prioritet məsələ olduğunu diqqətə çatdıran natiq cəmiyyətimizin, xüsusilə gənclərin radikal təsirlərdən qorunmasında hər kəsin üzərinə böyük məsuliyyət düşdüyünü vurğulayıb.

G.İsmayılov, həmçinin, dini radikalizmə qarşı mübarizədə maarifçiliyin əsas silah olduğunu diqqətə çatdırıb: “Dini maarifləndirmənin gücləndirilməsi, dinimizin düzgün şəkildə insanlara, xüsusilə gənclərə aşılanması radikalizmin qarşısının alınmasında ən effektiv vasitədir”, - deyə sədr müavini əlavə edib.

Daha sonra çıxış edən Rayon Təhsil Şöbəsinin müdiri Namiq Nağıyev gənclərin ekstremizm və digər zərərli vərdişlərdən qorunması üçün onlar arasında dini maarifləndirmə işinin aparılmasının önəmini diqqətə çatdırıb. Natiq Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin bu istiqamətdəki fəaliyyətini yüksək qiymətləndirib.

İştirakçıları maraqlandıran sualların cavablandırılması ilə yekunlaşıb.

# DİNİ QURUMLARLA İŞ ÜZRƏ DÖVLƏT KOMİTƏSİNİN SƏDRİ ŞAMAXIDA VƏTƏNDAŞLARI QƏBUL EDİB

Prezident İlham Əliyevin tapşırıq və tövsiyələrinə müvafiq olaraq mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri tərəfindən bölgələrdə vətəndaşların qəbulu davam etdirilir.

Vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı martın 12-də Şamaxı, Ağsu, İsmayıllı və Qobustan rayonlarından olan vətəndaşları qəbul edib.

Qəbuldan öncə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı və rayon icra hakimiyyətinin başçısı Tahir Məmmədov Ümummilli Lider Heydər Əliyevin şəhərin mərkəzindəki abidəsini ziyarət edərək önünə çiçəklər qoyublar.

Heydər Əliyev Mərkəzində keçirilən qəbula gələn vətəndaşların müraciətləri əsasən dini icmaların fəaliyyəti, onların dövlət qeydiyyatına alınması, məscidlərin təmiri, dini maarifləndirmə ilə əlaqədar icmalara vəsaitlərin ayrılması, dini icmaların zəruri dini ədəbiyyatla təmin edilməsi və sair məsələlərlə bağlı olub.

Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı vətəndaşların müraciətlərini diqqətlə dinləyərək bəzilərinin həlli, bəzilərinin isə araşdırılması üçün tapşırıqlar verib. Bir sıra müraciətlər yerindəcə həll edilib.

Vətəndaşlar qəbul üçün yaradılan şəraitdən razılıqlarını bildirib, bölgələrdə bu cür qəbulların keçirilməsinin təşəbbüscüsü olan Prezident İlham Əliyevə minnətdarlıqlarını ifadə ediblər.



# “ERMƏNİ TƏCAVÜZÜ VƏ MƏHV OLMUŞ TARIXI DİNİ ABİDƏLƏRİMİZ” MÖVZUSUNDA KONFRANS KEÇİRİLİB







Martın 28-də Bakıda Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) təşkilatçılığı ilə “Erməni təcavüzü və məhv olmuş tarixi dini abidələrimiz” mövzusunda konfrans keçirilib.

Tədbirdə Dövlət Komitəsinin rəhbərliyi, ölkəmizdə fəaliyyət göstərən dini konfessiyaların başçıları, eləcə də ictimaiyyət nümayəndələri iştirak ediblər.

DQİDK sədrinin birinci müavini Səyyad Salahlı Ermənistanın Azərbaycan xalqına qarşı davam edən təcavüzünün qurbanlarının təkcə soydaşlarımız deyil, həm də yaşı minilliklərlə ölçülən tarixi, dini və mədəni abidələrimiz, eləcə də müqəddəs ocaqlarımız və məbədlərimizin olması barədə danışıb. Bildirib ki, dini-mədəni abidələrimiz həm də xalqımızın daşlaşmış tarixidir. Ermənilər bu dəyərlərimizi məhv etməklə azərbaycanlıların guya burada yaşamadıqlarını sübut etmək iddiasındadırlar. O qeyd edib ki, ermənilər özlərinin “böyük Ermənistan” arzusunu gerçəkləşdirmək üçün bu abidələri dağıdıb məhv edirlər. Bu abidələrin erməniləşdirilərək özününküləşdirilməsinə cəhd edilir. İşğal altındakı müsəlman dini kimliyinə aid abidələr, o cümlədən digər mədəniyyət nümunələri dağıdılır, təhqir olunur. Komitə sədrinin birinci müavini deyib ki, ermənilərin işğal olunmuş Azərbaycan torpaqlarında tarixi-dini abidələrimizə qarşı saxtakarlıq və cinayət əməlləri beynəlxalq səviyyədə təsbit olunmuş “Silahlı münaqişə baş verdikdə mədəni dəyərlərin qorunması haqqında” 1954-cü il Haaqa Konvensiyasının, “Arxeoloji irsin mühafizəsi haqqında” 1992-ci il Avropa Konvensiyasının və “Ümumdünya mədəni və təbii irsin mühafizəsi haqqında” UNESCO-nun 1972-ci il Konvensiyasının tələblərinə ziddir.

S.Salahlı vurğulayıb ki, qədim Azərbaycan torpaqlarında, o cümlədən Dağlıq Qarabağda məhv edilən abidələrdən 367-si tarixi abidələr, 67-si məscidlər, 140-ı ziyarətgahlar, 140-ı isə məbədlərdir. Bunlar erməni işğalçıları tərəfindən dağıdılıb, məhv edilib və Azərbaycan xalqının milli-mənəvi yaddaşına güclü zərbə vurulub. Monoetnik Ermənistan dünya dəyərlərinə qarşı çıxaraq işğal etdikləri yerdə azərbaycanlıların maddi-mənəvi abidələrini məhv edirlər.

DQİDK sədrinin birinci müavini diqqətə çatdırıb ki, ermənilərin bu siyasəti dünya xalqları tərəfindən qəbul edilmir və erməni işğalçılarının bu hərəkəti pislənilsə də, təəssüf ki, buna qarşı nə böyük təşkilatlar, nə də böyük dövlətlər səviyyəsində münasibət bildirilir. Bir çox hallarda bu prosesləri görməməzliyə vururlar, ən yaxşı halda isə üzərindən sükutla keçirlər. Təbii ki, biz bu işğalçı siyasətlə barışa bilmərik və öz münasibətimizi ən müxtəlif istiqamətlərdə bildiririk.

Daha sonra Qafqaz Müsəlmanları İdarəsinin şöbə müdiri, Bakı Dövlət Universitetinin kafedra müdiri Anar İsgəndərov geniş məruzə ilə çıxış edib. Bildirib ki, Ermənistanın işğal olunmuş Azərbaycan ərazilərində xalqımıza məxsus maddi-mədəni irsi məhv etməsi yalnız ölkəmizə qarşı yönəlməyib. Bu, ümumbəşəri sivilizasiyaya qarşı törədilən vəhşilik, vandalizm aktıdır. O deyib ki, işğal edilmiş Azərbaycan ərazilərində erməni vandalları tərəfindən çoxsaylı məscid, muzey, maddi-mədəniyyət nümunəsi yerləyeksan olunub.

Qafqaz Müsəlmanları İdarəsi sədrinin müavini Fuad Nurullayev tədbirin aktuallığını qeyd edib, erməni saxtakarlığının ifşası baxımından əhəmiyyətini vurğulayıb. Bildirib ki, Ermənistanın işğal etdiyi tarixi Azərbaycan torpaqlarında dağıdılan, eyni zamanda ermənilərin özününküləşdirməyə cəhd göstərdikləri dini abidələrimizlə bağlı müzakirələrin aparılması, bu barədə cəmiyyətin tarixi faktlarla məlumatlandırılması daim diqqət mərkəzində olmalıdır.

Bakı şəhəri Dağ yəhudiləri dini icmasının sədri Milix Yevdayev, Katolik kilsəsinin Azərbaycandakı apostol prefekturasının keşişi Jozef Marek, Avropa Yəhudilərinin Bakı dini icmasının sədri Aleksandr Şarovski, Alban-Udi Xristian dini icmasının sədri Robert Mobili, Xilaskar Yevangelik Lüteranların Bakı dini icmasının sədri Vera Nesterova, Bakı şəhəri “Azərbaycan Bibliya Cəmiyyəti” xristian dini icmasının sədri Rasim Xəlilov, Rus Pravoslav kilsəsinin Bakı və Azərbaycan Yeparxiyasının nümayəndəsi Dionisiy Svečnikov və Gürcü Yəhudiləri Bakı dini icmasının nümayəndəsi Moisey Bekker çıxışlarında ermənilərin işğal olunmuş Azərbaycan torpaqlarında tarixi-dini abidələrimizə qarşı saxtakarlıq və cinayət əməlləri, ölkəmizin mədəni irsinə qarşı təcavüz faktları, o cümlədən dini-mədəni ibadətgahların mahiyyətinin dəyişdirilməsi barədə danışıblar.

Konfrans müzakirələrlə davam edib.

# YENİ QEYDİYYATDAN KEÇMİŞ DİNİ İCMALARA ŞƏHADƏTNAMƏLƏR TƏQDİM EDİLİB



Martın 12-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində (DQİDK) yeni qeydiyyatdan keçmiş dini icmalara şəhadətnamələr təqdim edilib. Bununla bağlı keçirilən tədbirdə Dövlət Komitəsinin rəhbərliyi, şöbə müdirləri və dini icmaların sədrləri iştirak ediblər.

Dövlət Komitəsi sədrinin birinci müavini Səyyad Salahlı bildirib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə respublikamızda dövlət tərəfindən din sahəsinə göstərilən diqqət və qayğı hər zaman özünü büruzə verir. Onun sözlərinə görə, müxtəlif dinlərin, millətlərin nümayəndələrinin tarixboyu sülh və əmin-amanlıq şəraitində yaşadığı ölkəmizdə multikulturalizm əsrlərdən bəri alternativi olmayan həyat tərzinə çevrilib və bu model dünyaya nümunə kimi təqdim olunmaqdadır.

Natiq onu da deyib ki, dini qurumların yenidən dövlət qeydiyyatına alınması prosesi başlayandan sonra 900-dən artıq dini qurum qeydiyyatdan keçib.

Milli-mənəvi dəyərlərimizin düzgün şəkildə gənclərə çatdırılmasının önəminə toxunan sədrin birinci müavini bu məqsədlə DQİDK-nın tabeliyində yaradılan Mənəvi Dəyərlərin Təbliği Fondunun fəaliyyətində ölkədə mövcud dini konfessiyaların dəstəklənməsinə, milli-mənəvi dəyərlərə bağlılığın gücləndirilməsinə xüsusi əhəmiyyət verildiyini vurğulayıb.

Dini icma sədrlərinə müvafiq tövsiyələrini verən S.Salahlı icmaları dini radikalizmə qarşı mübarizədə və dini maarifləndirmə prosesində fəal olmağa çağırıb.

Dini icma sədrləri vətəndaşların vicdan azadlığının yüksək şəkildə təmin olunması üçün yaradılan şəraitdən, dini sahəyə göstərilən qayğıdan məmnunluğunu ifadə ediblər.

Sonda qeydiyyat şəhadətnamələri dini icma sədrlərinə təqdim olunub.

# AĞDAMDA İKİGÜNLÜK SEMİNAR-MÜŞAVİRƏ KEÇİRİLİB



Martın 14-15-i tarixlərində Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) və Ağdam Rayon İcra Hakimiyyətinin (RİH) birgə təşkilatçılığı ilə "Azərbaycanda dövlət-din münasibətləri: tarix və müasirlik" mövzusunda ikigünlük seminar-müşavirə keçirilib.

Tədbirdə DQİDK sədrinin birinci müavini Səyyad Salahlı, Ağdam RİH başçısı Vaqif Həsənov, müəllimlər, ziyalılar, gənclər, dini icma sədrləri və rayon ictimaiy-yətinin nümayəndələri iştirak ediblər.

Ağdam RİH başçısı V.Həsənov ölkədə dini maarifləndirmə işinin gücləndirilməsinin zəruriliyini bildirib, son dövrlər Dövlət Komitəsinin təşəbbüsü ilə bu istiqamətdə həyata keçirilən tədbirləri yüksək qiymətləndirib.

DQİDK sədrinin birinci müavini Səyyad Salahlı vurğulayıb ki, xalqımız öz milli-mənəvi, dini dəyərlərini əsrlərboyu qoruyub saxlayıb. Xüsusilə dövlət müstəqilliyimizi bərpa etdikdən sonra Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə yenidən milli-mənəvi dəyərlərimizə, o cümlədən dini dəyərlərimizə diqqət və qayğı göstərilib. Qeyd edib ki, dinlərarası münasibətlərin tənzimlənməsi, eyni zamanda dini dözümlülüyün yüksək səviyyədə mövcudluğu dövlətin siyasətinin prioritet istiqamətlərindən biridir. Bu gün biz iftixar hissi ilə deyə bilərik ki, Azərbaycan dünyada tolerantlıq modelidir. İstər məzhəblərarası, istər dinlərarası məsələlərdə dini dözümlülük nümunəsidir. Dünyanın heç bir yerində Azərbaycan qədər dini dözümlülük yoxdur.




Bu dəyərlərin qorunmasında dini maarifləndirmənin əhəmiyyətinə toxunan Komitə sədrinin birinci müavini bu cür regional seminar-müşavirələrin keçirilməsinin dini icmaların və gənclərin cəmiyyətdə radikalizm meyillərinin qarşısının alınmasında fəal iştirakına səbəb olduğunu deyib.

Seminar müşavirənin ikinci günü Dövlət Komitəsinin Dini maarifləndirmə işinin təşkili şöbəsinin əməkdaşı Tural Vəlizadə "Mənəvi dəyərlərimiz və qloballaşma" mövzusunda geniş məruzə edib və DQİDK-nın sifarişi ilə çəkilmiş "Üfüqdəki gələcək" sənədli filmi nümayiş olunub.

# Qafqaz Müsəlmanları İdarəsi Yeni Zelandiyada törədilmiş terror aktı ilə bağlı bəyanat yayıb

Qafqaz Müsəlmanları İdarəsi (QMİ) Yeni Zelandiyada törədilmiş terror aktı ilə bağlı bəyanat yayıb.

Bəyanatda deyilir: Yeni Zelandiyanın Kraystçerç şəhərində məscidlərə silahlı hücum nəticəsində törədilmiş, çoxsaylı insan tələfatı ilə nəticələnmiş terror aktı haqqında xəbər biz, Azərbaycan dindarlarını hədsiz sarsıtdı. Bu dəhşətli terror aktı zamanı həlak olanların ailələrinə, yaxınlarına dərin hüznlə başsağlığı verir, terror qurbanlarına Allahdan rəhmət diləyir, yaralılara şəfa, bütün dünya müsəlmanlarına səbir və dəyanət arzulayırıq".

Müsəlmanlara qarşı törədilən qətllərin dini mənsubiyyətə görə həyata keçirilməsini islamofobiyanın bariz nümunəsi kimi qiymətləndirir, belə faşist mahiyyətli əməllərin qətiyyən yolverilməz olduğunu bəyan edirik. Hansı məqsəd və niyyət, hədəf və məramla həyata keçirilməsindən asılı olmayaraq insanların milli, dini, irqi mənsubiyyətə görə məhv edilməsi ksenofobiya təzahürü olmaqla insanlıq adına ləkə, mənəvi böhrandır.

Müqəddəs dəyər olan insan həyatına qəsd edən, Allaha xoş getməyən əməllər törədənlərin mənfur niyyətlərindən, bu amansız terror əməlindən son dərəcə hiddətlənir, terrorizmin bütün forma və təzahürlərini kəskin şəkildə qınayırıq. Biz dünya ictimaiyyətini belə barbarlıq hallarına, islamofobiya, dini ayrı-seçkiliyin müdhiş nümunəsinə sərt və birmənalı münasibət bildirməyə çağırırıq. Müsəlmanlar üçün müqəddəs olan Cümə gününü qara cüməyə çevirmək, Yaradana ibadət edən dinc insanları qətl etməyi qəhrəmanlıq kimi zənn edən islamofob bir düşüncə sahibinin iyrənc hərəkətləri insanlıq adına həqarətdir. Terrorun dini, terrorçunun dini mənsubiyyəti olmur. Lakin xəstə, zəhərlənmiş təfəkkürlə törədilmiş bu hadisə bütün bəşəriyyəti bu reallıq barədə bir daha və daha dərindən düşünməyə, daha səmərəli addımlar atmağa vadar edir".

Qeyd edilir ki, Yeni Zelandiyada törədilən bu amansız terror aktı əslində bütün dinlərə, bütövlükdə bəşəriyyətə qarşı yönəlmiş cinayətdir. Bu gün dünyamızın müxtəlif nöqtələrində dini və milli zəmində radikalizm və ekstremizmin tüğyan etməsi, dinlər, məzhəblər arasında toqquşmalar, terrorizm, separatizm, ksenofobiya, islamofobiya, antisemitizm, din adından sui-istifadə edərək insanların qətl edilməsi kimi çox təhlükəli təzahürlər yaşandığı bir dövrdə bu təhdidlərdən bəşər ailəsi yalnız səylərini birləşdirməklə, müxtəlif dinlər və mədəniyyətlər arasında əməkdaşlıq sayəsində xilas ola bilər. Belə faciəli hadisələr, müqəddəs məkanlarda - məsciddə, kilsədə, sinaqoqda törədilən qeyri-insani aktlar narahat dünyamızda müxtəlif din ardıcıllarının səy və qüvvələrinin birləşdirilməsinin nə qədər önəmli olduğunu bir daha sübut edir.

XXI əsrdə qloballaşma proseslərinin sürətləndiyi dövrdə terrorizm, ksenofobiya, antisemitizm, islamofobiya, ekstremizm və radikalizmin qarşısının alınması, dünyada sabitlik və əmniyyətin bərqərar olması üçün dövlət rəhbərlərinin, ictimai və dini liderlərin birgə, davamlı əməkdaşlığı vacibdir. Yeni Zelandiyada törədilən dəhşətli terror aktına dünyanın bir çox liderlərinin, beynəlxalq təşkilatların operativ və prinsipial mövqe nümayiş etdirməsi, heç şübhəsiz ki, təqdirəlayiqdir.

Beynəlxalq ictimaiyyətin haqlı qınağına səbəb olmuş bu hadisə bir daha sübut edir ki, dünyamızın əmin-amanlığı üçün dinlərarası dialoq və mədəniyyətlərarası əməkdaşlıq prioritet olmalı, dinc birgəyaşayışın önəmli şərti olaraq multikulturalizm və dinlərarası tolerantlıq ideyaları əsas götürülməlidir. Belə faciələrin təkrarlanmaması naminə dünya ictimaiyyəti ksenofobiyanın istənilən təzahürlərinin, o cümlədən islamofobiyanın qarşısının alınması üçün əlindən gələni əsirgəməməlidir.

Bu gün dünyada milli, irqi, dini ekstremizmi önləyə biləcək ən təsirli vasitə nümunəvi qarşılıqlı anlaşma mədəniyyətinin - multikultural həyat tərzinin qloballaşan dünyada təşviq edilməsidir. Azərbaycan dövləti məhz bu humanist məramları bəyan edir, təkcə İslam dünyası daxilində deyil, bütün səmavi dinlər arasında dostluq və qardaşlığın vacibliyini təlqin edir. Azərbaycanın bütün dünyada insan həmrəyliyinə xidmət edən qlobal təşəbbüsləri daha çox dəstək və ardıcıllara malik olarsa, bəşər belə faciələr yaşamaz.

"Biz, Azərbaycanın din xadimləri bir daha Yeni Zelandiyanın Kraystçerç şəhərində məscidlərə silahlı hücum aktını qətiyyətlə pisləyir, milyonlarla insanın iradəsini ifadə edərək dünya ictimaiyyətinə müraciət edir, Ulu Yaradanın buyurduqlarına zidd olan, sivil cəmiyyətlərə başucalığı gətirməyən belə halların bir daha təkrarlanmaması üçün bütün zəruri tədbirləri görməyə, dünya ictimaiyyətini öz səylərini daha sıx birləşdirməyə, əlindən gələni əsirgəməməyə çağırırıq. O Bir Olan Yaradanımızdan terror qurbanlarına rəhmət diləyirik".

Bəyanatı Qafqaz Müsəlmanları İdarəsinin sədri şeyxülislam Allahşükür Paşazadə, Bakı və Azərbaycan arxiyepiskopu Aleksandr və Azərbaycandakı Dağ yəhudiləri icmasının rəhbəri Milix Yevdayev imzalayıblar.

# İlahiyyat İnstitutu bölgələrə maarifləndirici səfərlər təşkil edəcək

AZƏRBAYCAN İLAHİYYAT İNSTİTUTU
AZERBAIJAN INSTITUTE OF THEOLOGY
2018

Azərbaycan İlahiyyat İnstitutu (AİI) 2019-2020-ci tədris ili üzrə instituta yüksək intellektli və savadlı gənclərin cəlb olunması məqsədilə Sumqayıt və Gəncə şəhərlərində, Lənkəran, Zaqatala, Şəki, Qəbələ, Quba, Bərdə, Ağcabədi, Şirvan, Neftçala və Salyan rayonlarında yerləşən orta məktəblərin yuxarı sinif şagirdləri üçün maarifləndirici tədbirlər həyata keçirilməsini planlaşdırır.

Abituriyentlərin, orta məktəb müəllimlərinin, aidiyyəti dövlət qurumlarının iştirakı ilə keçiriləcək tədbirlərdə institutun yaradılma məqsədi, fəaliyyət istiqamətləri, tələbələrə dəstək xidmətləri, məzunlar üçün iş imkanları haqqında ətraflı məlumat veriləcək.

Görüşlər zamanı AİI-də qəbul prosesinin təşkili forması, tədris edilən ixtisaslar haqqında məlumat verilməsi, institutun tanıtım videoçarxının nümayişi nəzərdə tutulur.

Xatırladaq ki, AİI-yə tələbə qəbulu Dövlət İmtahan Mərkəzinin xətti ilə III ixtisas qrupu üzrə iki istiqamətdə – islamşünaslıq və dinşünaslıq ixtisasları üzrə həyata keçirilir. İnstitutda, həmçinin magistratura və doktorantura pillələri üzrə qəbul aparılır.

İnstitut Prezident İlham Əliyevin 2018-ci il 9 fevral tarixli Sərəncamı ilə yaradılıb. Əsas məqsədi Azərbaycan xalqının tarixi ənənələrinə söykənən və dövlət siyasətinin məntiqi nəticəsi olan yüksək dini-mənəvi mühitin qorunub saxlanılması, inkişafı və dini fəaliyyətin təşkili sahəsində yüksək ixtisaslı kadrların hazırlanmasının təmin olunmasıdır.

# "DİNLƏRARASI SÜLHÜ ƏLDƏ ETMƏK YOLLARI: DİN XADİMLƏRİNİN, DİPLOMATLARIN VƏ İCTİMAİ XADİMLƏRİN ROLU"





Rusiyanın paytaxtı Moskvada "Dinlərarası sülhü əldə etmək yolları: din xadimlərinin, diplomatların və ictimai xadimlərin rolu" mövzusunda beynəlxalq konfrans keçirilib. Dünyanın müxtəlif ölkələrindən olan din xadimlərinin, diplomatların və ictimaiyyət nümayəndələrinin iştirak etdikləri konfrans fərqli din və mədəniyyətlərin daşıyıcısı olan insanlar arasında dialoq və qarşılıqlı anlaşmanın bərqərar edilməsi ətrafında fikir mübadiləsi aparmaq, eyni zamanda bu sahədəki mövcud problemləri və perspektivləri müzakirə etmək məqsədilə təşkil olunub. Konfransda ölkəmizi Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədr müavini Səyavuş Heydərov və Qafqaz Müsəlmanları İdarəsi sədrinin birinci müavini, müfti Hacı Salman Musayev təmsil ediblər.

Dövlət Komitəsinin sədr müavini Səyavuş Heydərov Azərbaycanda mövcud olan nümunəvi dövlət-din münasibətləri, tolerant və multikultural mühit, Azərbaycan həqiqətləri, o cümlədən dinlərarası dialoqun əhəmiyyəti barədə danışıb. O bildirib ki, bu gün dini ayrı-seçkiliyin gücləndiyi, bəzən dini zəmində qarşıdurmaya bilərəkdən rəvac verildiyi bir dünyada dinlərarası və mədəniyyətlərarası dialoqun bərqərar olması vacibdir. Cəmiyyətdə, böyük miqyasda götürdükdə isə dünyada tolerantlıq prinsipləri bərpa olunmayana qədər dinlərarası dialoqdan danışmaq və bu istiqamətdə səy göstərmək əbəs yerə enerji sərf etməyə bənzəyir. Dinlərarası və mədəniyyətlərarası dialoqa nail olmaq, sülh və əmin-amanlıq üçün bütün beynəlxalq təşkilatların, nüfuzlu dini mərkəzlərin, ən əsası, ölkələrin səylərinin birləşdirilməsi zəruridir. Bu baxımdan Azərbaycan üzərinə düşən mənəvi borcu və şərəfli missiyanı layiqincə yerinə yetirməyə çalışır. Vicdan azadlığını insan hüquq və azadlıqlarının yalnız bir parçası kimi deyil, həm də tarixi dəyər kimi uca tutan Azərbaycan xalqı müxtəlif dini inanclı insanların birgəyaşayış ənənələrini zənginləşdirərək bütün dünya üçün örnək ola biləcək dini tolerantlıq modelini yaradıb. Məhz bu səbəbdən Azərbaycan tarixən sivilizasiyalararası dialoqa önəmli töhfələr verən, dözümsüzlüyün bütün formalarını rədd edən humanist məkan kimi öz mövqeyini qoruyub saxlaya bilib.

Ümummilli Lider Heydər Əliyevin siyasəti nəticəsində ölkəmizdə din sahəsində sabitlik əldə edildiyini, dövlət-din münasibətlərinin beynəlxalq hüquq normaları müstəvisində tənzimləndiyini, konfessiyalar arasında dözümlülük mühitinin qorunub saxlanılması üçün hüquqi baza yaradıldığını deyən Səyavuş Heydərov Azərbaycanın dövlət-din münasibətləri modelinin hazırda Prezident İlham Əliyev tərəfindən zamanın tələblərinə uyğun olaraq daha da təkmilləşdirildiyini və bu modelin dünyada nümunə kimi qəbul olunduğunu vurğulayıb. O deyib ki, hazırda Azərbaycan dünyada beynəlxalq təhlükəsizliyə ciddi təhdid olan dini və etnik zəmində baş verən qarşıdurmaların qarşısının alınmasında öz əməli fəaliyyəti ilə hərəkətverici qüvvəyə çevrilib. 2016-cı ilin ölkəmizdə "Multikulturalizm İli", 2017-ci ilin isə "İslam Həmrəyliyi İli" elan edilməsi, 10 ilini tamamladığımız "Bakı Prosesi" dünya xalqları və mədəniyyətləri arasında qarşılıqlı hörmət və anlayışı, əməkdaşlıq və dialoqu təşviq edən qlobal xoşməramlı çağırışdır.

Konfrans iştirakçılarını Azərbaycan həqiqətləri barədə də məlumatlandıran sədr müavini qeyd edib ki, tarixi Azərbaycan torpaqlarının 20 faizindən çoxunun monokultural siyasət yürüdən Ermənistan tərəfindən işğal olunmasına, bir milyondan artıq azərbaycanlının öz torpaqlarından qovulmasına, minlərlə soydaşımızın terrora məruz qalmasına, Dağlıq Qarabağ ərazisində çoxsaylı dini, mədəni və tarixi abidələrimizin Ermənistan silahlı birləşmələri tərəfindən dağıdılmasına baxmayaraq, Bakının mərkəzində yerləşən erməni kilsəsi Azərbaycan dövləti tərəfindən mühafizə edilir. Təkcə bu faktların özü Azərbaycan dövləti və xalqının yüksək tolerant və multikultural mədəniyyətinin bariz sübutudur.

Hacı Salman Musayev çıxışında konfransın çox aktual mövzuya həsr edildiyini və zamanın tələbi olduğunu bildirib. Vurğulayıb ki, qloballaşan dünyada dinlərarası sülhə ehtiyac duyulur. Müsəlmanların ekstremist kimi təqdim olunması cəhdləri dünyanın müxtəlif bölgələrində davam edir və İslamın mahiyyəti haqsızlıqla təhrif edilir. Yeni Zelandiyada törədilən terror aktı bunun bir nümunəsidir. Ekstremizmə, radikalizmə qarşı olan xarici düşmənçiliyin bütün təzahürlərini, xüsusən islamofobiyanı aradan qaldırmaq yalnız dövlətlərin, ictimai və siyasi xadimlərin, o cümlədən dini qurumların birgə səyləri ilə mümkündür. Din siyasətdən ayrı olsa da, qlobal reallığın ayrılmaz hissəsidir. Zamanın özü, baş verən proseslər bizdən birgə səylərimizi artırmağımızı tələb edir.

S.Musayev çıxışının sonunda diqqətə çatdırıb ki, Rusiya həmişə İslam dünyasına, müsəlman mədəniyyətinə xoş münasibəti ilə seçilib. Çoxmillətli və çoxkonfessiyalı bir dövlət olaraq Rusiya ənənəvi dinlərin normal varlığı və inkişafı üçün bütün lazımi şərait yaradıb. Bugünkü konfrans da bu münasibətin məntiqi nəticəsidir.

Beynəlxalq konfrans işini panellərlə davam etdirib.

# DÖVLƏT KOMİTƏSİNDƏ GÖRÜŞ

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi sədrinin müavini Səyavuş Heydərov martın 11-də Vineyard Hyuston kilsəsinin Azərbaycan üzrə əlaqələndiricisi, missiya rəhbəri pastor Vestley Edmendson ilə görüşüb.

Komitə sədrinin müavini xalqımızın çoxəsrlik tolerant və mehriban birgəyaşayış ənənələri, bu dəyərlərin qorunub saxlanılması və təşviqi istiqamətdə aparılan nümunəvi din siyasəti barədə danışıb. Son dövrlər dinin siyasiləşdirilmiş formada yayılması və təqdim edilməsinin fəsadlarına toxunan S.Heydərov bildirib ki, Azərbaycanda tarixən formalaşmış yüksək tolerantlıq mədəniyyəti cəmiyyətimizin təhlükəsizliyi üçün böyük potensialdır. Ölkəmizdə tolerantlıq daha da möhkəmlənən, hər bir vətəndaşın mövqeyində, münasibətində və həyat tərzində ehtiva olunan önəmli bir dəyərə çevrilib və milli sərvət olaraq qəbul edilir.

Sədr müavini qeyd edib ki, əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan siyasətin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi nəticəsində Azərbaycanda nümunəvi multikultural və birgəyaşayış modeli formalaşıb. O, əhalisinin əksəriyyətini müsəlmanlar təşkil edən respublikamızda bütün dini konfessiyaların nümayəndələrinin dövlətin diqqət və qayğısı ilə əhatə olunduğunu vurğulayıb.



Qonağı Azərbaycan həqiqətləri barədə məlumatlandıran S.Heydərov diqqətə çatdırıb ki, Ermənistanın təcavüzkarlıq siyasətini davam etdirməsi, Azərbaycan ərazisinin iyirmi faizini işğal altında saxlaması, soydaşlarımızın məcburi köçkün həyatı yaşaması təkcə Azərbaycanda deyil, bütün regionda sülh və sabitliyin bərqərar olmasına kölgə salır. Sədr müavini deyib ki, dünya birliyi, eyni zamanda dini liderlər və mərkəzlər ədalətin bərqərar olunmasında xüsusi səylər göstərməlidirlər.

Növbəti dəfə ölkəmizə səfər etməsindən məmnun olduğunu bildirən Vineyard Hyuston kilsəsinin Azərbaycan üzrə əlaqələndiricisi, missiya rəhbəri pastor Vestley Edmendson Azərbaycanın multikulturalizm modelinin mükəmməl olduğunu qeyd edib və respublikada multikulturalizm və sivilizasiyalararası dialoq ideyasının təşviqi istiqamətində görülən işləri yüksək qiymətləndirib. V.Edmendson ölkəmizdə dini ibadətgahlara göstərilən diqqətə, eləcə də "Vineyard Azərbaycan" xristian dini icmasının fəaliyyəti üçün yaradılan şəraitə görə minnətdarlığını ifadə edib.

# 31 MART – AZƏRBAYCANLILARIN SOYQIRIMI GÜNÜ

XX əsr bir çox müsbət və mənfi məqamları ilə Azərbaycan tarixində özünəməxsus yer tutmuşdur. Bu baxımdan ən əhəmiyyətli zaman kəsiyi isə 1918-ci ildir. Həmin ildə bir-birini sürətlə əvəzləyən və Azərbaycan xalqının taleyində həlledici sayılan bir çox hadisə baş vermişdir. Onların ən yüksək zirvəsi, sözsüz ki, 1918-ci il mayın 28-də Azərbaycanın dövlət müstəqilliyinin elan edilməsidir. Bunun ardınca sentyabrın 15-də Bakının Qafqaz İslam Ordusu tərəfindən azad olunması və Azərbaycan hökumətinin Bakıya köçməsi, dekabrın 7-də Azərbaycan Parlamentinin yaranması və nəhayət, dekabrın 28-də Azərbaycan hökumətinin Cənubi Qafqazda İttifaq qoşunlarının komandanlığı və İngiltərə hökuməti tərəfindən qanuni hakimiyyət kimi tanınması milli dövlətçilik tariximizdə əlamətdar hadisələrdəndir.

Ancaq bunlarla yanaşı, 1918-ci il bütün Azərbaycan xalqı üçün ümumi faciəyə çevrilmiş, hətta onun mövcudluğunu şübhə altında qoymuş hadisə ilə tariximizə düşmüşdür. Həmin ilin mart ayında Bakı və Şamaxıda törədilmiş hadisələr bu qanlı zəncirin başlanğıcı olmuşdur. Mart ayının bir neçə günü ərzində bu şəhərlərin və ətraf kəndlərinin dinc azərbaycanlı əhalisi özbaşınalıq edən bolşevik-daşnak hərbi qüvvələri tərəfindən misli görünməmiş talan və qırğınlara məruz qalmışdır. Bakı və Şamaxıdan sonra müsəlman qırğınları Göyçay, Ərəş, Cavad, Nuxa, Quba qəzalarını, Gəncə şəhərinin ətraf kəndlərini, Lənkəran, Zəngəzur qəzalarını, həmçinin Qarabağın azərbaycanlılar yaşayan bütün yaşayış məntəqələrini əhatə etmişdir.



## Mart soyqırımının baş vermə səbəbləri

Məlumdur ki, 1917-ci ilin fevralında Rusiyada burjua-demokratik inqilabı nəticəsində Romanovlar sülaləsi devrildi və müvəqqəti hökumət təşkil edildi. Yeni hökumət Rusiyanın hökmranlığı altında yaşayan xalqlara müraciət edərək I dünya müharibəsi başa çatandan sonra onların öz müqəddəratlarını həll etməsi məsələsinə baxılacağını bildirmişdi. Lakin 1917-ci ilin oktyabrında bolşeviklərin hakimiyyəti zorla ələ keçirməsi Rusiya xalqlarının bu arzularını boşa çıxardı. Bolşeviklər fəhlə-kəndli hökuməti qurmaq adı altında əvvəlki imperiyanı bərpa etməyə başladılar.

Həmin dövrdə Azərbaycanda da vəziyyət mürəkkəb idi. 1917-ci ilin sonu 1918-ci ilin əvvəllərində Bakıda bolşevik-daşnak birləşmələrinin milli qüvvələrə qarşı açıq mübarizəsi yetişməkdə idi. 1917-ci ilin dekabrında Rusiya Xalq Komissarları Sovetinin sədri V.İ.Lenin tərəfindən Qafqazın fövqəladə komissarı təyin olunmuş Stepan Şaumyan Korqanovun başçılıq etdiyi Hərbi İnqilab Komitəsi ilə birlikdə Tiflisdən Bakıya gəlməsi buradakı siyasi vəziyyəti daha da gərginləşdirdi. Şaumyanın ciddi səyləri ilə Qafqaz cəbhəsindən geri qayıdan əsgərlər vətənlərinə qayıtmaq əvəzinə Bakıda toplaşdılar. Daşnak-bolşevik birləşmələrini narahat edən əsas məsələ Azərbaycanda milli qüvvələrə başçılıq edən "Müsavat" partiyasının nüfuzunun getdikcə artması idi. Bu səbəbdən də onlar Bakını inqilabla əksinqilab arasında mübarizə meydanı elan etmişdilər. Bolşevik-daşnak qüvvələrinin birləşdiyi Bakı Sovetinin ixtiyarında Qırmızı Ordu adı altında əksəriyyəti ermənilərdən ibarət olan 20 minlik silahlı qüvvə cəmlənmişdi.

1918-ci ilin martında Bakı Sovetinə keçirilən seçkilərdə "Müsavat"ın böyük səs çoxluğu ilə qələbə qazanması siyasi gərginliyi kulminasiya nöqtəsinə çatdırdı. Cənubi Qafqazın ən güclü siyasi partiyasına çevrilən "Müsavat" Azərbaycanın ərazi muxtariyyəti və siyasi hakimiyyət uğrunda inamla mübarizə aparırdı. Şaumyan başda olmaqla bolşevik qüvvələri Erməni Milli Şurası və terrorçu "Daşnaksütyun" partiyasının rəhbərləri ilə birlikdə "Müsavat"a qarşı əsl müharibəyə başladılar. Azərbaycan milli qüvvələrinin sayca az və pis silahlanmış olduğunu yaxşı bilən Şaumyan müsəlmanlara "dərs vermək" üçün milli qırğına hazırlaşırdı.

1918-ci il martın 29-da şəxsi heyəti müsəlmanlardan ibarət olan "Evelina" gəmisinin Bakıda bolşevik qüvvələri tərəfindən tərksilah edilməsi milli qırğına başlamaq üçün bəhanə oldu. Belə ki, martın 17-də silahla ehtiyatsız davranışdan həlak olmuş Hacı Zeynalabdin Tağıyevin oğlu Məhəmməd Tağıyevin cənazəsini Bakıya gətirən müsəlman diviziyasının 48 nəfərdən ibarət kiçik dəstəsi bolşevikləri təşvişə saldı. Mərhumu dəfn edən müsəlman dəstəsi "Evelina" gəmisi ilə Lənkərana geri qayıtmalı idi. Paroxodun körpüdən aralanmasına az qalmış silahlı bolşeviklər müsəlman dəstəsinin tərksilah olunmasını tələb etdi. Müsəlman dəstəsinin rədd cavabına tüfənglərdən və pulemyotlardan atılan atəşlə cavab verildi. Gəmidəki silahlar bolşeviklər tərəfindən müsadirə olundu.

Ertəsi gün şəhərin cənub hissəsində erməni əsgərləri göründülər. Onlar bütün küçə boyu səngərlər qazmağa, torpaq və daşlardan bəndlər ucaltmağa başladılar. Həmin gün Müsəlman Xeyriyyə Cəmiyyətinin binasında keçirilən yığıncağa gələn Bakı şəhərinin keçmiş rəisi Ter-Mikaelyants Erməni Milli Şurası və "Daşnaksütyun" partiyası adından bəyan etdi ki, əgər müsəlmanlar bolşeviklərə qarşı çıxış etsələr, ermənilər də onlara qoşulacaq və bolşeviklərin Bakıdan qovulmasına kömək edəcəklər. Martın 31-də səhər tezdən şəhərin müsəlmanlar yaşayan hissəsinə hücumlar başladı. Ermənilərin yalançı vədlərinə inanmış müsəlmanlar əvvəlcə şəhərdə nə baş verdiyini müəyyən edə bilmirdilər. Hücum ərəfəsində bütün ermənilər şəhərin müsəlmanlar yaşayan hissəsindən ermənilər yaşayan hissəsinə keçmişdilər.

Azğınlaşmış erməni quldurlar dinc azərbaycanlı əhalini qırıb-çatmaq üçün ən amansız üsullara əl atırdılar. Bəzi faktlar bunu açıq-aşkar sübut edir. 1918-ci il iyulun 15-də milli hökumət tərəfindən yaradılan Fövqəladə Təhqiqat Komissiyasının üzvü A.Y.Kluge komissiyanın sədrinə məruzəsində yazırdı: "Yaxşı silahlanmış, təlim keçmiş erməni əsgərləri çoxlu miqdarda pulemyotların müşayiəti ilə hücum edirdilər. Ermənilər müsəlmanların evlərinə soxulur, bu evlərin sakinlərini qırır, onları qılınc və xəncərlərlə doğram-doğram və süngülərlə deşik-deşik edir, uşaqları yanan evin alovları içərisinə atır, üç-dörd günlük çağaları süngünün ucunda oynadır, öldürülən valideynlərin südəmər körpələrinə rəhm etmir, hamısını öldürürdülər".

Təhqiqat Komissiyasının sənədlərinə əsasən məlum olur ki, 1918-ci ilin mart soyqırımı zamanı təkcə Bakı şəhərində 10 mindən çox türk-müsəlman öldürülmüşdü. Bütün Azərbaycan ərazisində öldürülənlərin sayı isə 50 mini keçirdi. Onların çoxunun meyiti tapılmamışdı. Çünki şahidlərin dediklərinə görə, ermənilər meyitləri od-alova bürünmüş evlərə, dənizə və quyulara atırdılar ki, törətdikləri cinayətin izini itirsinlər.

Soyqırımı zamanı erməni quldurlarının vəhşiliyi nəticəsində bir çox ziyarətgah və tarixi abidələr yerlə-yeksan edilmiş, uzaqvuran toplarla Təzə pir məscidi zədələnmiş, "İsmailiyyə" müsəlman xeyriyyə cəmiyyətinin, "Kaspi" qəzetinin, "Dağıstan" mehmanxanasının binalarına və digər bir çox nadir tikililərə od vurularaq yandırılmışdı.

Mart hadisələri zamanı dəhşətli talan və vəhşiliklərə məruz qalan şəhərlərimizdən biri də Şamaxı olmuşdur. Qaniçən Lalayevin başçılıq etdiyi quldur dəstələri şəhərin müsəlmanlar yaşayan hissəsinin hamısına od vurmuşdular.

Quba şəhərində törədilən qırğınlarda isə erməni daşnak qüvvələri ilə yanaşı, bolşevik əsgərləri də yaxından iştirak edirdi. Faciəni səciyyələndirən başlıca cəhət odur ki, Quba qəzasında qırğınlar əvvəlcədən düşünülmüş plan əsasında həyata keçirilmişdi.

Şahidlərdən biri yazır: "Amazasp adlı bir erməni quldurunun dəstəsi Quba camaatını bir yerə yığdıqdan sonra 4-ü qadın, 2-si yeniyetmə olmaqla 6 günahsız insanı meydanın mərkəzinə gətirdilər. Amazaspın tapşırığı ilə yeniyetmələrin başlarını kəsdilər. Qadınları uşaqlarının qanını içməyə məcbur etdilər. Onlar şivən qoparıb daşnakların üstünə atılanda qarınlarını süngülərlə deşdilər. Sonra isə Amazasp əsgərləri cərgə ilə düzdürüb əhaliyə atəş açmağı əmr etdi. Nəticədə yüzlərlə günahsız insan qətlə yetirildi".

Ayrı-ayrı mənbələrə və şahidlərin dediklərinə əsasən, Amazaspın vəhşilikləri nəticəsində 1918-ci ilin ilk beş ayı ərzində Quba qəzasında 16 mindən çox insan həlak olmuşdu.

Biz ötən əsrin əvvəllərində başımıza gətirilən faciələri unutmamalı, həqiqətləri gələcək nəsillərə çatdırılması üçün əlimizdən gələni etməliyik. 1990-cı ilin yanvar faciəsi, 1992-ci ilin fevralında Xocalı soyqırımı və həmin ildən başlayaraq 20 faizdən artıq torpaqlarımızın ermənilər tərəfindən işğal edilməsi erməni məkrinin, ən əsası isə mart soyqırımının unudulmasının nəticəsidir. Bu soyqırımı bir daha təsdiq edir ki, düşmənə qarşı azərbaycanlılar daim birlik nümayiş etdirməlidir. Necə ki, M.Ə.Rəsulzadə bunu 1919-cu il aprel ayında nəşr edilmiş "Azərbaycan" qəzetində söyləmişdi: "31 mart bizə birlik və ittihad üçün bir nümuneyi-imtisal eyləsin".

31 mart, eyni zamanda Azərbaycan xalqının tarixi yaddaşına, ziyalılarına qarşı mənəvi soyqırımı idi. Belə ki, ermənilər bu vəhşilikləri dünya ictimaiyyətindən gizlətmək üçün Azərbaycan ziyalılarını məhv etməyə çalışırdılar. "İstiqlal" qəzeti məlumat verirdi ki, ermənilər evbəev gəzərək ziyalıları güllələbaran edirlər. Bu hadisələr zamanı müsəlmanlara qarşı törədilən faciələri doğru şəkildə əhaliyə çatdıran bir sıra rusdilli qəzetlər bağlanmışdı. S.Şaumyan bildirirdi ki, guya bu qəzetlər mart hadisələrinə düzgün qiymət vermir və vahid sosialist cəbhədə dayanmırlar. Onun əmri ilə Azərbaycanın digər yerlərində insanların bu vəhşiliklərdən xəbər tutmaması üçün erməni və bolşevik mətbuatları istisna olmaqla, digər qəzet və jurnalların fəaliyyəti dayandırılmışdı.

Ancaq bu soyqırımı sanki xalqımızı dərin yuxudan oyatdı. Azərbaycan Xalq Cümhuriyyətinin təsis edilməsi həmin dövr üçün böyük dirçəliş oldu. Məhz AXC tərəfindən 31 mart hadisəsi 1919 və 1920-ci illərdə ümummilli matəm günü elan edildi. Soyqırımının hərtərəfli tədqiqi ilə bağlı Fövqəladə İstintaq Komissiyası, o cümlədən bu cinayətləri dünyaya çatdırmaq üçün xüsusi qurum təsis edilsə də, gənc dövlətin süqutu bu işin yarımçıq qalması ilə nəticələndi.

Azərbaycan uzun müddət Sovet imperiyasının tərkibində qaldığına görə bu məsələ insanların yaddaşından silinirdi. Lakin Ümummilli Lider Heydər Əliyevin 1998-ci il 26 mart tarixli Fərmanı ilə 31 mart Azərbaycanlıların Soyqırımı Günü elan edildi. Sonrakı dövrlərdə bu soyqırımı istiqamətində ciddi araşdırmalara başlanıldı və 2007-ci ildə Qubada aşkar edilmiş kütləvi məzarlıq 31 mart soyqırımının iç üzünü dünyaya tanıtdı.

**Hazırladı:** *Ramil Baxşəliyev*

# Qısa-Qısa

*Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) ölkə ərazisində dini maarifləndirmə və milli-mənəvi dəyərlərin təbliği işini davam etdirir. Bu istiqamətdə keçirilən tədbirlərdə ölkəmizdəki multikultural və tolerant mühit, həmçinin dini radikalizmə qarşı mübarizənin mahiyyəti haqqında çıxışlar edilir, dövlət-din münasibətlərinin hüquqi bazası barədə məlumat verilir, eləcə də dini icmaların maarifləndirmə sahəsində fəallığının daha da artırılması məqsədilə müzakirələr aparılır. Tədbirlərdə Dövlət Komitəsinin əməkdaşları ilə yanaşı, respublikanın müxtəlif şəhər və rayonlarının icra hakimiyyəti və hüquq mühafizə orqanı rəhbərləri, gənclər, dini icma sədrləri, din xadimləri, dindarlar, ilahiyyatçılar, ziyalılar və ictimaiyyət fəalları iştirak edirlər. Cari ay ərzində bu qəbildən tədbirlər:*

**4 mart** – DQİDK-nın Bakı şəhəri üzrə şöbəsi və Şuşa Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə Sabunçu rayonunda yerləşən Malıbəyli kənd Musiqi məktəbində "Dini radikalizmlə mübarizədə milli-mənəvi dəyərlərin rolu" mövzusunda;



**5 mart** – DQİDK-nın İmişli bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Saatlı rayon Mərkəzi Kitabxanasında "Dini radikalizm, erkən nikah və onların fəsadları" mövzusunda; Göyçay Rayon İcra Hakimiyyəti, rayonun Heydər Əliyev Mərkəzi və DQİDK-nın Ucar bölgəsi üzrə şöbəsinin birgə təşkilatçılığı ilə "Qadın və cəmiyyətimiz" mövzusunda;



**6 mart** – DQİDK-nın və Müdafiə Nazirliyinin 2019-cu il üçün birgə fəaliyyət planına əsasən, Qaradağ rayonu Səngəçal qəsəbəsində yerləşən "N" saylı hərbi hissədə "Şəxsi heyətin mənəvi-psixoloji vəziyyətinin, hərbi intizamının möhkəmləndirilməsində, hərbi qulluqçular arasında vətənpərvərlik ruhunun yüksəldilməsində dini dəyərlərin rolu" mövzusunda;

**7 mart** – DQİDK-nın İmişli bölgəsi üzrə şöbəsi və Qafqaz Müsəlmanları İdarəsinin birgə təşkilatçılığı ilə "Dini radikalizmlə mübarizədə dindarların rolu" mövzusunda;

**12 mart** – Zaqatala Rayon İcra Hakimiyyəti, DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsi və Rayon Təhsil Şöbəsinin birgə təşkilatçılığı ilə Lahıc kənd tam orta məktəbində "Gənclərin dini radikalizm və ekstremizm meyillərindən qorunması" mövzusunda; Azərbaycan Respublikasının Müdafiə Nazirliyi və DQİDK tərəfindən birgə imzalanan Tədbirlər Planına əsasən Beyləqan rayonunda yerləşən hərbi hissələrdə "Vətənpərvərlik dini radikalizmə qarşı mübarizədə güclü vasitədir" mövzusunda;

**13 mart** – DQİDK-nın Lənkəran bölgəsi üzrə şöbəsi, İnsan Hüquqları üzrə Müvəkkilin Cəlilabad Regional Mərkəzi və Lənkəran Şəhər Təhsil Şöbəsinin birgə təşkilatçılığı ilə Şirinsu kənd tam orta məktəbində "Dini radikalizm, zərərli vərdişlər və onların fəsadları" mövzusunda; Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi, Nizami Rayon İcra Hakimiyyəti və Rayon Polis İdarəsinin birgə təşkilatçılığı ilə Nizami rayonu 129 saylı tam orta məktəbdə "Dini radikalizm və ekstremizmə qarşı mübarizədə gənclərin rolu" mövzusunda;



DQİDK-nın Lənkəran bölgəsi üzrə şöbəsi, İnsan Hüquqları üzrə Müvəkkilin Cəlilabad Regional Mərkəzi və Lənkəran Şəhər Təhsil Şöbəsinin birgə təşkilatçılığı ilə Qumbaşı kənd tam orta məktəbində "Gənclərin dini radikalizm, narkomaniya və erkən nikahlardan qorunması" mövzusunda; DQİDK-nın Lənkəran bölgəsi üzrə şöbəsi, İnsan Hüquqları üzrə Müvəkkilin Cəlilabad Regional Mərkəzi və Lənkəran Şəhər Təhsil Şöbəsinin birgə təşkilatçılığı ilə "Nəsimi ili" ilə əlaqədar Tükəvilə kənd tam orta məktəbində;




**14 mart** – DQİDK-nın Lənkəran bölgəsi üzrə şöbəsi, İnsan Hüquqları üzrə Müvəkkilin Cəlilabad Regional Mərkəzi və Lənkəran Şəhər Təhsil Şöbəsinin birgə təşkilatçılığı ilə Yuxarı Nüvədi kənd tam orta məktəbində "Mənəvi dəyərlərimizi qoruyaq!" mövzusunda; Balakən Rayon İcra Hakimiyyətinin, DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsinin, Rayon Polis Şöbəsinin və Rayon Təhsil Şöbəsinin birgə təşkilatçılığı ilə Qazbinə kənd tam orta məktəbində "Dini radikalizm və onun təhlükəsi" mövzusunda; DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Qax rayonu Qaxbaş kənd 2 nömrəli tam orta məktəbində "Mənəvi dəyərlərimiz və gənclər" mövzusunda;



**15 mart** – DQİDK-nın İmişli bölgəsi üzrə şöbəsi və Sabirabad Regional Mədəniyyət İdarəsinin birgə təşkilatçılığı ilə Rayon Mədəniyyət Mərkəzində "Dini radikalizm, narkomaniya, erkən nikah və onların fəsadları" mövzusunda;

**28 mart** – DQİDK-nın Ucar bölgəsi üzrə şöbəsinin və Ucar şəhər 5 saylı tam orta məktəbin birgə təşkilatçılığı ilə gənclərlə maarifləndirmə xarakterli görüş; DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Balakən rayonu Qullar 2 saylı tam orta məktəbində "Dini radikalizmə qarşı mübarizə" mövzusunda keçirilib.

Tədbirlərdə çıxış edən natiqlər müxtəlif dini cərəyanların yaranma tarixindən, zərərli dini qrupların təbliğat metodlarından bəhs ediblər. Qeyd olunub ki, gənclərin belə radikal qrupların təsirinə düşməməsi üçün mütəmadi olaraq maarifləndirmə tədbirləri həyata keçirilir. Həmçinin bildirilib ki, milli-mənəvi, tolerant və multikultural dəyərlərimizin qorunması istiqamətində dövlət tərəfindən mühüm addımlar atılmaqdadır. Çıxışlarda vurğulanıb ki, məhz görülən bu işlər nəticəsində gənc nəsildə Vətənə məhəbbət hissi daha da artmaqla yanaşı, qeyri-ənənəvi dini təriqətlərə maraq azalıb.



Milli-mənəvi dəyərlərimizin, o cümlədən ölkəmizdə tarixən mövcud olan tolerant və multikultural ənənələrin qorunmasından danışan natiqlər qeyd ediblər ki, bu cür tədbirlər Azərbaycan gəncliyinin öz qədim tarixi irsinə, milli-mənəvi dəyərlərinə sadiq qalmaları, vətənə məhəbbət, torpağa sədaqət ruhunda tərbiyə olunmaları istiqamətində böyük əhəmiyyət daşıyır. Bildirilib ki, gənclərimizin düzgün istiqamətləndirilməsində, onların sağlam düşüncəli vətəndaş kimi yetişməsində dini icmaların və din xadimlərinin üzərinə böyük məsuliyyət düşür.



Gənclər və uşaqlar arasında maarifləndirmə işinin aparılmasının əhəmiyyətinə toxunulan tədbirlərdə isə bildirilib ki, bu cür tədbirlər uşaqların təlim-tərbiyəsində və onların cəmiyyət üçün faydalı fərd kimi yetişməsində, zərərli vərdişlərlə və narkomaniya ilə mübarizədə, eyni zamanda milli-mənəvi dəyərlərin qorunmasında mühüm rol oynayır.



# “EurActiv” portalı: “Şərq ilə Qərb Azərbaycanda qovuşur”




Azərbaycanda mövcud olan təhlükəsizlik və gender bərabərliyi amili ölkənin müasir müsəlman demokratiyasının parlaq nümunəsi kimi beynəlxalq arenadakı mövqeyini daha da möhkəmləndirir.

Bu fikir ABŞ-ın Merilend və Boston universitetlərinin məzunu olan Vadim Qusmanisin Avropada geniş oxucu auditoriyasına malik “EurActiv” xəbər portalında yayılmış “Şərqlə Qərb Azərbaycanda qovuşur” adlı məqaləsində yer alıb.

Müəllif qeyd edir ki, bu bahar İsraildən minlərlə yəhudi, o cümlədən Avropadan olan xristianlar Pasxanı qeyd etmək üçün bir həftəlik Azərbaycanın paytaxtı Bakıya üz tutacaqlar. Yəhudilərin və xristianların ən çox səyahət edəcəkləri ölkə kimi Azərbaycanı seçmələri əbəs yerə deyil. Belə ki, əhalisi əsasən müsəlmanlardan ibarət olan Azərbaycanda əsrlər boyu mövcud olan dini tolerantlıq, dünyəvilik, multikulturalizm ənənələri sayəsində yəhudi və xristian icmaları həmişə əmin-amanlıq şəraitində yaşayıblar.

Məqalədə böyük İpək Yolunun kəsişməsində yerləşən Azərbaycanın coğrafi mövqeyinin onu müxtəlif mədəniyyətlərin bir araya gəlməsinə və birlikdə inkişaf etdiyi məkana çevrilməsinə şərait yaratdığı qeyd olunur. Müəllif XIX əsrin sonu, XX əsrin əvvəlində Azərbaycanın neft bumu yaşadığını, neft və qaz sənayesini inkişaf etdirməyə təkan verən bu prosesin dünyanın hər yerindən investorları və işçiləri ölkəyə cəlb etdiyini diqqətə çatdırır.

Yazıda, həmçinin Azərbaycanda qadınların ölkənin ictimai-siyasi həyatında fəal şəkildə rol oynamalarına diqqət yetirilir. Müəllif müsəlman Şərqində ilk demokratik respublika olan Azərbaycan Xalq Cümhuriyyətinin 1918-ci ildə yarandığını vurğulayaraq, müasir Azərbaycan Respublikasının Konstitusiyasında da təsbit olunmuş bir çox dəyərlərin, ən başlıcası, vətəndaşın əsas hüquq və azadlıqlarını təşkil edən qanunların məhz Cümhuriyyətin dövlətçilik ənənələrinə söykəndiyini bildirir. O, Azərbaycan Xalq Cümhuriyyətinin 1918-ci ildə qadınlara səsvermə hüququ verən öncül dövlətlərdən biri olmasının, həmçinin müsəlman dünyasında ilk opera teatrının vətəni kimi zəngin mədəni irsə sahib olmasının ölkə vətəndaşlarının qürur mənbəyi olduğunu bildirir.

Müəllif son dövrlərlə Azərbaycanda həyata keçirilən mütərəqqi siyasi və iqtisadi islahatlar nəticəsində baş verən inkişaf proseslərindən bəhs edir, bunun yeni sərmayə və texnologiyaların ölkəyə gəlməsinə təkan verdiyini vurğulayır. O, ölkədə ümumi daxili məhsulun dəfələrlə artdığını diqqətə çatdırır.

Məqalədə, həmçinin “ASAN xidmət” mərkəzlərinin fəaliyyətindən söhbət açılır. Bildirilir ki, “ASAN xidmət” vətəndaşlara vaxt itirmədən, heç bir bürokratik əngəllə üzləşmədən müxtəlif xidmətlərdən istifadə etməyə imkan yaradır. Müəllif Azərbaycanda biznes mühitinin daha da yaxşılaşdırılması, iş adamları üçün daha yaxşı şəraitin yaradılması, ölkənin iqtisadi və maliyyə sisteminin daha da şəffaflaşdırılması və bürokratik əngəllərin aradan qaldırılması ilə bağlı fikirləri də diqqətə çatdırır.

Sonda qeyd edilir ki, bu gün Şərqlə Qərb arasında körpü rolunu oynayan Azərbaycan müxtəlif mədəniyyətlərin, konfessiyaların və ideyaların qovuşduğu bir məkana çevrilib və ölkə vətəndaşları da bundan qürur duyurlar.

# The Washington Times: “Ermənistanda “məxməri inqilabın” hüdudlarından kənarda”

The Washington Times qəzetində Jewish News Syndicate nəşrinin keçmiş baş redaktoru Ceykob Kamarasın “Ermənistanda “məxməri inqilabın” hüdudlarından kənarda” sərlövhəli məqaləsi dərc olunub. Müəllif yeni baş nazir Nikol Paşinyanın qeyri-ardıcıl siyasətini və Ermənistanın ağır siyasi və iqtisadi vəziyyətini təhlil edir.

Məqalədə qeyd olunur ki, özünü islahatçı və demokrat adlandıran Nikol Paşinyanın Qarabağ müharibəsinin keçmiş militaristlərindən ibarət olan “köhnə qvardiyanı” kənarlaşdıraraq hakimiyyəti ələ keçirdiyi “məxməri inqilab” adlanan hadisənin ildönümü yaxınlaşır.

Müəllif xatırladır ki, Avropa ölkələri, həmçinin Ermənistanın ABŞ Konqresindəki qatı tərəfdarları Paşinyanı tərifləməyə başladılar. Kamaras əlavə edir ki, bununla belə, Ağ ev və Dövlət Departamenti milli təhlükəsizlik üzrə müşavir Con Boltonun bu yaxınlarda həyata keçirdiyi səfərdən sonra Ermənistan hökumətinin yeni rəhbərinə kifayət qədər skeptik yanaşırlar. Regiona səfər etmiş ABŞ Prezidentinin milli təhlükəsizlik məsələləri üzrə müşaviri Con Boltonun mövqeyini təhlil edən müəllif yazır ki, müşavir Cənubi Qafqazı Birləşmiş Ştatlar üçün strateji cəhətdən əhəmiyyətli region, Azərbaycan və Gürcüstanı ABŞ-ın etibarlı müttəfiqləri hesab etməklə yanaşı, siyasi cəhətdən müstəqil dövlət olmayan Ermənistanın hələ də bu “layiqli kluba” daxil ola bilmədiyi qənaətindədir.

Kamaras qeyd edir ki, cənab Boltonun sözlərinə görə, müvəffəqiyyətin açarı qondarma və qeyri-qanuni “dövlət” yaratmaq adı altında Ermənistanın Azərbaycan ərazilərinin 20 faizini işğal etməsi ilə nəticələnən Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllidir. Bu münaqişənin nizama salınması Ermənistanı transformasiya edə bilər və baş nazir Nikol Paşinyanın da öz inqilabi çıxışlarında vəd etdiyi kimi, onun müstəqillik, müasirlik və tərəqqi yoluna qədəm qoymasına şərait yaradar.




Müəllifin yazdığına görə, ekspertlər hesab edirlər ki, Cənubi Qafqaz öz regional potensialından hər üç ölkənin tam iştirakı ilə istifadə edə bilər. Beləliklə, Ermənistan Azərbaycanın Dağlıq Qarabağ regionunda müharibəyə son qoymalı, eyni zamanda vassal dövlət olmaqdan qurtulmalı və tərəfdaşlığa səy göstərən davranış nümayiş etdirməlidir. Münaqişə Ermənistanın tarixində dərin iz buraxıb və bu ölkənin inkişafdan geri qalmasını, dərin yoxsulluğu, kəskin “beyin axınını”, ən əsası isə, onun digər dövlətlərdən asılı və köklü şəkildə asılılığını gücləndirib.

Kamaras əlavə edir ki, Ermənistan öz qonşularından nümunə götürə bilər. Neft və qazla zəngin olan Azərbaycan və təşəbbüskar Gürcüstan böyük iqtisadi inkişafdan bəhrələnirlər: neft və qaz kəmərləri, limanlar, Şərq-Qərb dəmir yolu, peyklər, turizm, təhsil, müasir səhiyyə, elm və incəsənət, habelə dünya ölkələri arasında layiqli yer bu nailiyyətlərdəndir. Lakin bir ildən sonra Paşinyanın erməni xalqına vəd etdiyi inkişafdan əsər-əlamət yoxdur. Bu ölkənin iqtisadiyyatı hələ də öz əlində deyil.

# Cənubi Amerika dövlətlərinin yeni bloku yaradılıb

Çilinin paytaxtı Santyaqoda keçirilən sammitdə Cənubi Amerika dövlətlərinin yeni bloku yaradılıb. Prosur adlanan yeni blok Cənubi Amerika Dövlətləri Birliyini (Unasur) əvəz edəcək.

Argentina, Çili, Braziliya, Paraqvay, Peru, Uruqvay, Kolumbiya, Ekvador, Boliviya, Surinam və Qayananın dövlət başçılarının sammitinin yekun Bəyannaməsində deyilir ki, yeni blokun yaradılmasında əsas məqsəd Cənubi Amerika ölkələri arasında əməkdaşlığın, xüsusən iqtisadi əlaqələrin gücləndirilməsidir. Braziliya Prezidenti Jair Bolsonaru jurnalistlərə müsahibəsində deyib ki, hazırda mühüm olan məsələ hər hansı ideologiyadan uzaq olan ümumi inkişaf hədəflərinə nail olmaqdır. Çilinin Prezidenti Sebastyan Pinera isə əlavə edib ki, blok ideoloji konsepsiyalardan və bürokratik əngəllərdən kənarda olan iqtisadi inteqrasiya problemlərinin həllini həyata keçirəcək.

Səkkiz dövlətin (Uruqvay, Boliviya və Surinam istisna olmaqla) liderləri Santyaqo Bəyannaməsini imzalayıblar. Sənəddə ölkələr arasında energetika, infrastruktur, səhiyyə, müdafiə, təhlükəsizlik, cinayətkarlığa qarşı mübarizə, təbii fəlakətlərin qarşısının alınması və idarəetmə sahələrində əməkdaşlığın inkişafı nəzərdə tutulur.

# Heydər Əliyev Mərkəzi dünyanın ən gözəl səkkiz konsert zalı arasında yer alıb



Dünyada məşhur olan "Vogue" jurnalının Paris nəşrinin portalında dünyanın səkkiz ən gözəl konsert zalı haqqında məlumat dərc olunub.

Dünyanın memarlıq incilərindən olan Heydər Əliyev Mərkəzi də "Vogue"un siyahısında yer alıb. Mərkəzin məşhur memar Zaha Hadidin şah əsərlərindən biri olduğu diqqətə çatdırılıb.

Qeyd edilib ki, Heydər Əliyev Mərkəzi ölkəmiz üçün mədəniyyət və memarlığın yeni dövrünün rəmzidir. Memar bu əsəri vasitəsilə mədəniyyətimizin müxtəlif həssaslıqlarını və xalqın optimizmini əks etdirməyə çalışıb.

Dünyada böyük musiqiçilərin konsertləri keçirilmiş və ən gözəl hesab olunan bu konsert zallarının gizli sirlərlə dolu və bəzilərinin isə müasir memarlıq əsərlərinin şedevri olduğu vurğulanıb.

# Tolerantlıq və multikulturalizmin Azərbaycan modeli əsrlər boyu mövcud olub

Fəlsəfə elmi çoxdan etiraf edib ki, milli ideya cəmiyyətin həyatında, siyasi praktikada mühüm rol oynayır. Odur ki, hər bir millət siyasi mənlik şüurunun obyektiv inikası kimi, öz milli ideyasına sahib olmalıdır, əks təqdirdə, onun mövcudluğu heç bir halda özünü doğrulda bilməz. Əgər tolerantlıq və multikulturalizm humanist dünyagörüşü və bir ölkədə yaşayan müxtəlif xalqların mədəni hüquqlarının qəbul edilməsi kimi nəzərdən keçirilsə, onda müdrik dövlət siyasətinin həyata keçirilməsi nəticəsində Azərbaycanda çoxsaylı xalqların azad yaşamasına və müxtəlif dinlərin və mədəniyyətlərin yanaşı mövcud olması üçün bütün zəruri şəraitlər yaradılıb.

Buna görə də Azərbaycan dünyada təkcə neft və qaz deyil, həm də tolerantlıq və multikulturalizm dəyərləri ixrac edən ölkə kimi tanınır.

Bu fikirlər hüquq elmləri doktoru, Ukraynanın Əməkdar təhsil işçisi, professor Arif Quliyevin Ukraynanın "Versii.com" portalında dərc olunmuş "Müasir azərbaycanlıların dəyərləri: ənənələr, tolerantlıq və diplomatiya" sərlövhəli məqaləsində yer alıb.

Tolerantlığın və multikulturalizmin Azərbaycan modelinin yaranması tarixinə toxunan A.Quliyev yazır: "Tolerantlığın və multikulturalizmin humanizm və ümumbəşəri dəyərlərdən qaynaqlanan Azərbaycan modeli əsrlər boyu mövcud olub, multikulturalizm təsadüfi təzahür deyildir – onun birbaşa Azərbaycan xalqının həyat tərzinə əsaslanan dərin tarixi kökləri var. Azərbaycan Prezidenti İlham Əliyev 2016-cı ili Azərbaycanda "Multikulturalizm ili" elan edəndə məhz bunu əsas götürüb".

Multikulturalizmin və tolerantlığın müxtəlif təzahürlərini tarixi və fəlsəfi aspektlərdə nəzərdən keçirən müəllif qeyd edir: "Müasir cəmiyyətdə bir sosial subyektin digər sosial subyektin sosial, siyasi, etnik, konfessional və qeyri xüsusiyyətlərinə tolerant yanaşması sivilizasiya yaşaması və inkişafının, həm dövlət səviyyəsində, həm də adi qarşılıqlı münasibətlər səviyyəsində tənzimlənməsinin mütləq şərtidir".



ВЕРСИИ.COM

Политика
Экономика
Бизнес
Медиа-Дайджест
ФизCulture
Мир
ТОП-20
Блоги
Архив
ЮГО-ВОСТОК
Поиск

## Ценности современных азербайджанцев: традиции, толерантность и дипломатия

**Философская наука давно признала, что национальная идея играет важную роль в жизни общества, в политической практике. Поэтому каждая нация должна обрести свою национальную идею как объективное отображение политического самосознания нации, иначе ее существование никак не оправдано. Если рассматривать толерантность и мультикультурализм как гуманистическое мировоззрение и признание культурных прав разных народов, живущих в одной стране, то в Азербайджане в результате претворения в жизнь мудрой государственной политики созданы все необходимые условия для свободного проживания многочисленных национальностей и сосуществования различных религий и культур.**

Поэтому Азербайджан известен в мире как страна, экспортирующая не только нефть и газ, но и ценности толерантности и мультикультурализма.

Азербайджанская модель толерантности и мультикультурализма существовал веками, опираясь на гуманизм и общечеловеческие ценности – это устойчивый и последовательный политический курс государства, опирающийся основа социальной стабильности на национально-духовные, общечеловеческие, гуманистические ценности.

Сегодня представители других народов в Азербайджане говорят на родных языках, сохраняют национальные обычаи и традиции, не сталкиваясь ни с какими проявлениями дискриминации, свободно осуществляют деятельность в различных сферах и, как результат, вносят собственный вклад в общий процесс развития страны и общества.

Учитывая большой интерес к модели мультикультурализма в Азербайджане, одним из направлений его деятельности в рамках межкультурного диалога Фонд Гейдара Алиева, в частности, стало преподавание дисциплины «Азербайджанский мультикультурализм» в

# İnkvizisiya məhkəməsinin dəhşətli işgəncə alətləri




Latın dilində hərfi tərcüməsi istintaq, axtarış mənasını verən- inkvizisiya XIII-XIX əsrlərdə katolik kilsəsi nəzdində xüsusi istintaq və məhkəmə orqanı olub. Papa III İnnokenti tərəfindən təsis edilib. Bu orqanın başlıca vəzifəsi kafirlərə və cadugərlərə qarşı mübarizə aparmaq olub. 1232-ci ildə Papa IX Qriqori İtaliya, Almaniya, İspaniya, Portuqaliya, Fransa, Niderlandda sonradan isə Meksika, Braziliya və Peruda daimi inkvizisiya tribunalları yaradıb.

İnkvizisiyanın qurbanları orta əsrlərin görkəmli mütəfəkkir və alimləri Yan Qus, Cordano Bruno, Qalleo Qalleo, Nikolay Kopernik olub. Orta əsrlərdə Katolik kilsələrinin çıxardığı cəza hökmləri ağır işgəncə alətləri ilə həyata keçirilirdi.

AZƏRTAC-ın xəbər verir ki, Şirvanşahlar Sarayı Kompleksində İnkvizisiya - orta əsr işgəncə alətləri haqqında sərgi təşkil olunub. İtaliya Respublikası və Rusiya Federasiyasının təşkilati dəstəyi ilə ərsəyə gələn bu sərgidə orta əsrlərin Avropa ölkələrində kilsə məhkəməsinin insanlara tətbiq etdiyi cəza prosedurunun alətləri və qurğuları nümayiş edilir. "İçərişəhər" kimi tarixi məkanda, həm də orta əsr sarayında belə bir ekspozisiyanın sərgilənməsi ziyarətçilərə eyni mövzunun Şərqdə və Qərbdə necə gerçəkləşdirilməsinə dair düşünmə və müqayisə etmə imkanı verir . Ekspozisiyada qurbanlara fiziki əzab vermək, onları etiraf etməyə məcbur etmək üçün işgəncə qurğusu nümayiş edilir.

İtaliyalı kolleksiyaçı Pyer Luici Kanovinin şəxsi kolleksiyasından olan bu işgəncə alətlərinin sayı 200-ə qədər olsa da, Bakıya 70-ə yaxın müxtəlif ölçülü qurğu gətirilib. Əntiq əşyalar toplayan kolleksiyaçının əlinə ilk eksponat 40 il əvvəl keçib.

Sərgidə sorğulama kürsüsü, dartma taxtasından tutmuş kiçik ölçülü kəlbətinlərə qədər ən müxtəlif işgəncə alətləri yer alır. O dövrün ən yüngül işgəncə alətlərindən biri daha çox kişi hakimiyyətinə qarşı çıxan qadınlara qarşı istifadə olunan maskalar olub.

Təşkilatçılar da qeyd edir ki, Bakıya gətirilən alətlər sərginin keçiriləcəyi yerə, eləcə də auditoriyaya görə seçilib. İndiyədək bütün dünyanı gəzən eksponatların bir sərgi halına gətirilməsi də az zaman almayıb.

Sərgi eyni mövzunun Şərqdə və Qərbdə necə gerçəkləşdirilməsinə dair düşünmə və müqayisə etmə imkanı verib. Elə ziyarətçilərə təqdim olunan eksponatların da əsas məramı düşünməyə sövq etməkdir.

Sərgi avqustun 18-dək davam edəcək.

# QEYRİ-KOMMERSİYA DİNİ QURUMLARININ DÖVLƏT REYESTR (Dini qurumların dövlət reyestri) MƏLUMATLARI

*Dövlət qeydiyyatına alınaraq Qeyri-kommersiya dini qurumlarının dövlət reyestrinə (Dini qurumların dövlət reyestri) daxil edilmiş dini qurumlar*

**"Ağdaş rayonu Dovudlu kənd məscidi" dini icması**
Qeydiyyat tarixi: 12 mart 2019-cu il
Qeydiyyat №-si: 100119A-889
Maliyyə ili: 01 yanvar – 31 dekabr
Hüquqi ünvanı: Ağdaş rayonu, Dovudlu kənd məscidi
Fəaliyyət ərazisi: Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan
Fəaliyyət predmeti və məqsədi: Dini ibadət və dini tələbatın ödənilməsi
Qanuni təmsilçisi: Rasulov Vüqar Misirxan oğlu

**"Salyan rayonu Dayıkənd kəndi "Fatimeyi Zəhra" məscidi" dini icması**
Qeydiyyat tarixi: 12 mart 2019-cu il
Qeydiyyat №-si: 100119C-890
Maliyyə ili: 01 yanvar – 31 dekabr
Hüquqi ünvanı: Salyan rayonu, Dayıkənd kənd məscidi
Fəaliyyət ərazisi: Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan
Fəaliyyət predmeti və məqsədi: Dini ibadət və dini tələbatın ödənilməsi
Qanuni təmsilçisi: Əhmədov Firdovsi Seyfəddin oğlu

**"Göyçay rayonu Cəyirli kənd məscidi" dini icması**
Qeydiyyat tarixi: 12 mart 2019-cu il
Qeydiyyat №-si: 100119A-891
Maliyyə ili: 01 yanvar – 31 dekabr
Hüquqi ünvanı: Göyçay rayonu, Cəyirli kənd məscidi
Fəaliyyət ərazisi: Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan
Fəaliyyət predmeti və məqsədi: Dini ibadət və dini tələbatın ödənilməsi
Qanuni təmsilçisi: Abışov Elbrus Valeh oğlu

"Xızı rayonu Sitalçay kənd məscidi" dini icması
Qeydiyyat tarixi: 12 mart 2019-cu il
Qeydiyyat №-si: 100119A-892
Maliyyə ili: 01 yanvar – 31 dekabr
Hüquqi ünvanı: Xızı rayonu, Sitalçay kənd məscidi
Fəaliyyət ərazisi: Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan
Fəaliyyət predmeti və məqsədi: Dini ibadət və dini tələbatın ödənilməsi
Qanuni təmsilçisi: Məlikov Pərvaz Zabil oğlu

**"Masallı rayonu Böyük Xocavar kəndi "İmam Hüseyn" məscidi" dini icması**
Qeydiyyat tarixi: 12 mart 2019-cu il
Qeydiyyat №-si: 100119C-893
Maliyyə ili: 01 yanvar – 31 dekabr
Hüquqi ünvanı: Masallı rayonu, Böyük Xocavar kəndi, "İmam Hüseyn" məscidi
Fəaliyyət ərazisi: Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan
Fəaliyyət predmeti və məqsədi: Dini ibadət və dini tələbatın ödənilməsi
Qanuni təmsilçisi: Abdullayev Miryağub Mirheydər oğlu

**"Bakı şəhəri "Alov" xristian" dini icması**
Qeydiyyat tarixi: 12 mart 2019-cu il
Qeydiyyat №-si: 100119B-894
Maliyyə ili: 01 yanvar – 31 dekabr
Hüquqi ünvanı: Bakı şəhəri, Sabunçu rayonu, Bakıxanov qəsəbəsi, R.Axundov küçəsi, ev 14, mənzil 39
Fəaliyyət ərazisi: Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan
Fəaliyyət predmeti və məqsədi: Dini ibadət və dini tələbatın ödənilməsi
Qanuni təmsilçisi: Məmmədov İdris Rafael oğlu

**"Masallı rayonu Gəyəçöl kəndi "İmam Hüseyn" məscidi" dini icması**
Qeydiyyat tarixi: 12 mart 2019-cu il
Qeydiyyat №-si: 100119C-895
Maliyyə ili: 01 yanvar – 31 dekabr
Hüquqi ünvanı: Masallı rayonu, Gəyəçöl kəndi, "İmam Hüseyn" məscidi
Fəaliyyət ərazisi: Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan
Fəaliyyət predmeti və məqsədi: Dini ibadət və dini tələbatın ödənilməsi
Qanuni təmsilçisi: Əhmədov Qüdrət Qardaşxan oğlu

**"İmişli rayonu Telişli kəndi "Fatimeyi-Zəhra" məscidi" dini icması**
Qeydiyyat tarixi: 12 mart 2019-cu il
Qeydiyyat №-si: 100119A-896
Maliyyə ili: 01 yanvar – 31 dekabr
Hüquqi ünvanı: İmişli rayonu, Telişli kəndi, "Fatimeyi-Zəhra" məscidi
Fəaliyyət ərazisi: Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan
Fəaliyyət predmeti və məqsədi: Dini ibadət və dini tələbatın ödənilməsi
Qanuni təmsilçisi: Əhmədova Gülnarə Sədulla qızı

**"Lənkəran rayonu Kənarmeşə kəndi Bağıroba məhəllə məscidi" dini icması**
Qeydiyyat tarixi: 12 mart 2019-cu il
Qeydiyyat №-si: 100119C-897
Maliyyə ili: 01 yanvar – 31 dekabr
Hüquqi ünvanı: Lənkəran rayonu, Kənarmeşə kəndi, Bağıroba məhəllə məscidi
Fəaliyyət ərazisi: Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan
Fəaliyyət predmeti və məqsədi: Dini ibadət və dini tələbatın ödənilməsi
Qanuni təmsilçisi: Babayev Rasif Hacıbaba oğlu

**"Masallı rayonu Yeyənkənd kəndi "İmam Əli" məscidi" dini icması**
Qeydiyyat tarixi: 12 mart 2019-cu il
Qeydiyyat №-si: 100119C-898
Maliyyə ili: 01 yanvar – 31 dekabr
Hüquqi ünvanı: Masallı rayonu, Yeyənkənd kəndi, "İmam Əli" məscidi
Fəaliyyət ərazisi: Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan
Fəaliyyət predmeti və məqsədi: Dini ibadət və dini tələbatın ödənilməsi
Qanuni təmsilçisi: Əhmədov Mirhəsən Səftər oğlu

**"Ucar rayonu Qaracallı kənd məscidi" dini icması**
Qeydiyyat tarixi: 12 mart 2019-cu il
Qeydiyyat №-si: 100119D-899
Maliyyə ili: 01 yanvar – 31 dekabr
Hüquqi ünvanı: Ucar rayonu, Qaracallı kənd məscidi
Fəaliyyət ərazisi: Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan
Fəaliyyət predmeti və məqsədi: Dini ibadət və dini tələbatın ödənilməsi
Qanuni təmsilçisi: Abdıyev Xosrov Sabir oğlu

**"Ağdaş rayonu Ərəb kənd məscidi" dini icması**
Qeydiyyat tarixi: 12 mart 2019-cu il
Qeydiyyat №-si: 100119A-900
Maliyyə ili: 01 yanvar – 31 dekabr
Hüquqi ünvanı: Ağdaş rayonu, Ərəb kənd məscidi
Fəaliyyət ərazisi: Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan
Fəaliyyət predmeti və məqsədi: Dini ibadət və dini tələbatın ödənilməsi
Qanuni təmsilçisi: Ədilov Faris Zahid oğlu

**"Kürdəmir rayonu Dayıkazımlı kənd məscidi" dini icması**
Qeydiyyat tarixi: 12 mart 2019-cu il
Qeydiyyat №-si: 100119A-901
Maliyyə ili: 01 yanvar – 31 dekabr
Hüquqi ünvanı: Kürdəmir rayonu, Dayıkazımlı kənd məscidi
Fəaliyyət ərazisi: Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan
Fəaliyyət predmeti və məqsədi: Dini ibadət və dini tələbatın ödənilməsi
Qanuni təmsilçisi: Mehdiyev Cavanşir Mehdi oğlu

**"Yevlax rayonu Hacıselli kənd məscidi" dini icması**
Qeydiyyat tarixi: 12 mart 2019-cu il
Qeydiyyat №-si: 100119D-902
Maliyyə ili: 01 yanvar – 31 dekabr
Hüquqi ünvanı: Yevlax rayonu, Hacıselli kənd məscidi
Fəaliyyət ərazisi: Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan
Fəaliyyət predmeti və məqsədi: Dini ibadət və dini tələbatın ödənilməsi
Qanuni təmsilçisi: Dadaşov Elşən Əhmədiyyə oğlu

**"Ağdaş rayonu Yuxarı Qəsil kənd məscidi" dini icması**
Qeydiyyat tarixi: 12 mart 2019-cu il
Qeydiyyat №-si: 100119A-903
Maliyyə ili: 01 yanvar – 31 dekabr
Hüquqi ünvanı: Ağdaş rayonu, Yuxarı Qəsil kənd məscidi
Fəaliyyət ərazisi: Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan
Fəaliyyət predmeti və məqsədi: Dini ibadət və dini tələbatın ödənilməsi
Qanuni təmsilçisi: Əzizov Yusif Vəli oğlu

**"Masallı rayonu Təklə kəndi "İmam Zaman" məscidi" dini icması**
Qeydiyyat tarixi: 12 mart 2019-cu il
Qeydiyyat №-si: 100119C-904
Maliyyə ili: 01 yanvar – 31 dekabr
Hüquqi ünvanı: Masallı rayonu, Təklə kəndi, "İmam Zaman" məscidi
Fəaliyyət ərazisi: Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan
Fəaliyyət predmeti və məqsədi: Dini ibadət və dini tələbatın ödənilməsi
Qanuni təmsilçisi: Nuriyev Muxtar Qulam oğlu

**"Göyçay rayonu Qəbələ Müskürlü kənd məscidi" dini icması**
Qeydiyyat tarixi: 12 mart 2019-cu il
Qeydiyyat №-si: 100119A-905
Maliyyə ili: 01 yanvar – 31 dekabr
Hüquqi ünvanı: Göyçay rayonu, Qəbələ Müskürlü kənd məscidi
Fəaliyyət ərazisi: Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan
Fəaliyyət predmeti və məqsədi: Dini ibadət və dini tələbatın ödənilməsi
Qanuni təmsilçisi: Aslanov Yusif Fərhad oğlu

## *Qeyri-kommersiya dini qurumlarının dövlət reyestrində (Dini qurumların dövlət reyestri) edilmiş dəyişikliklər*

**"Masallı rayonu Ağakişibəyli kəndi "Şeyx Həsən" məscidi" dini icması**
Qeydiyyat tarixi: 11 dekabr 2009-cu il
Qeydiyyat №-si: 100109A2 – 84
Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Şahverdiyev Yəhyə Fəyyaz oğlu, Qurbanov Balayar Xudayar oğlu, Zeynalov Zeynal Bayramalı oğlu, Şahverdiyev Bahaddin Əyyub oğlu, Quliyev Səyavuş Ağababa oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar.
Zeynalov Elgün Sərraf oğlu, Zeynalov Elvin Sərraf oğlu, Kərimov Sadiq Ədalət oğlu, Bəşirov Əbülfət Mədət oğlu, Şahverdiyev Yusif Bahadir oğlu, İsmayılov Elgün Rasif oğlu, Şahverdiyev Zahid Qulam oğlu, Zeynalov Əyyar Səməd oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.
Quliyev Səyavuş Ağababa oğlu dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışdır.
Zeynalov Elgün Sərraf oğlu dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişdır.

**Dəyişikliklərin qeydiyyat tarixi: 01 mart 2019-cu il**

**"Sabirabad rayonu Bulduq kənd məscidi" dini icması**
Qeydiyyat tarixi: 24 aprel 2015-c il
Qeydiyyat №-si: 100115C – 582
Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Hacıəliyev Xudayar Pənah oğlu, Kərimov Qonsur Ağaşərif oğlu, İsayev Güzasaf Misir oğlu, Səftərov Abbasəli Abbas oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar.
Cavadov Elizbar Zülfəli oğlu, Abdullayev Qədim Mustafa oğlu, Cavadov Mübariz Müttəlif oğlu, Səftərov İntizam Abbasəli oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

**Dəyişikliklərin qeydiyyat tarixi: 04 mart 2019-cu il**

**"Sabirabad rayonu Qaralı kənd məscidi" dini icması**
Qeydiyyat tarixi: 05 dekabr 2009-cu il
Qeydiyyat №-si: 100109A2 – 60
Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Əhmədov Həsən Əhməd oğlu, Əsgərov Səxavət Bəybala oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar.
Səmədov Əlibala Rəşid oğlu, Əhmədov İsmayıl Həsən oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

**Dəyişikliklərin qeydiyyat tarixi: 04 mart 2019-cu il**

**"Bakı şəhəri Əzizbəyov rayonu Buzovna qəsəbəsi «Məşədi Qərib» məscidi" dini icması**
Qeydiyyat tarixi: 24 noyabr 2009-cu il
Qeydiyyat №-si: 100109A2 – 23
Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən dini icmanın adı "Bakı şəhəri Əzizbəyov rayonu Buzovna qəsəbəsi «Məşədi Qərib» məscidi" dini icması kimi Dini qurumların dövlət reyestrindən çıxarılmış, həmin dini icmanın adı "Bakı şəhəri Xəzər rayonu Buzovna qəsəbəsi «Məşədi Qərib» məscidi" dini icması kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişdir.
"Bakı şəhəri Xəzər rayonu Buzovna qəsəbəsi «Məşədi Qərib» məscidi" dini icmasının hüquqi ünvanı "Bakı şəhəri, Əzizbəyov rayonu, Buzovna qəsəbəsi, Natavan küçəsi, 73, "Məşədi Qərib" kimi Dini qurumların dövlət reyestrindən çıxarılmış, həmin dini icmanın hüquqi ünvanı Bakı şəhəri, Xəzər rayonu, Buzovna qəsəbəsi, Natavan küçəsi, 73, "Məşədi Qərib" məscidi" kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişdir.
Şıxəliyev Hafiz Hacıbaba oğlu, İslamov Həmid Ağabala oğlu, İskəndər Mübariz Həsənağa oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar.
Pənahov Qüdrət Sapbar oğlu, Əhmədov İlham Bayram oğlu, Zayirov Əbülfəz Məmmədağa oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

**Dəyişikliklərin qeydiyyat tarixi: 05 mart 2019-cu il**

**"İsmayıllı rayonu Kürdeldarbəyli kənd məscidi" dini icması**
Qeydiyyat tarixi: 23 sentyabr 2010-cu il
Qeydiyyat №-si: 100110A4 – 486
Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Ağayev Tapdıq Ağanəzər oğlu, İsmayılov Məhərrəm Yedigar oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar.
Əliyev Bayram İsmayıl oğlu, İsmayılov Böyükağa Məhərrəm oğlu, İsmayılov Yaşar Məhərrəm oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

**Dəyişikliklərin qeydiyyat tarixi: 06 mart 2019-cu il**

**"Zərdab rayonu Xanməmmədli kənd məscidi" dini icması**
Qeydiyyat tarixi: 29 iyul 2010-cu il
Qeydiyyat №-si: 100110A4 – 454
Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Qocayev Əli Məhəmmədəli oğlu, Məmmədov Həsənqulu Həsən oğlu, Quluyev Məzahir Mehdixan oğlu, Gülümov Şəmsəddin Şamil oğlu, Cavadov Sabir Vəli oğlu, Məmmədov Məhəmməd Bəhrəm oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar.
Qurbanov Cəlləd İbrahim oğlu, Cavadov Mahir Mətləb oğlu, Cavadov Cavad Mətləb oğlu, Gülümov Kamıl Şəmsəddin oğlu, Həsənov Ziya Vahid oğlu, Məmmədov Oqtay Şirin oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.
Cavadov Səmid Vəli oğlu dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışdır.
Mahir Mətləb oğlu Cavadov dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişdır.

**Dəyişikliklərin qeydiyyat tarixi: 06 mart 2019-cu il**

**"Göyçay rayonu Mırtı kəndi "Şeyx Nəbi" məscidi" dini icması**
Qeydiyyat tarixi: 22 iyul 2010-cu il
Qeydiyyat №-si: 100110A3 – 449
Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Abdullayev Qadir Niyaz oğlu dini icmanın təsisçisi kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar.
Aslanov Seymur Teymur oğlu, Kərimov Elsevər Saleh oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

**Dəyişikliklərin qeydiyyat tarixi: 06 mart 2019-cu il**

## E L A N

***11.12.2002-ci ildə 146 nömrəli şəhadətnamə ilə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində dövlət qeydiyyatına alınmış "Mingəçevir şəhəri, Mingəçevir kənd "Şeyx Əbdül" ziyarətgahı"nın təsisçilərinin 27 mart 2019-cu il tarixli ümumi yığıncağında 01 nömrəli protokolu ilə həmin ziyarətgahın ləğvi barədə qərar qəbul edilmişdir.***

***11.12.2002-ci ildə 146 nömrəli şəhadətnamə ilə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində dövlət qeydiyyatına alınmış "Mingəçevir şəhəri, Mingəçevir kənd "Şeyx Əbdül" ziyarətgahı"na məxsus şəhadətnamə itdiyi üçün etibarsız sayılır.***

***31.07.2007-ci ildə 1307Ağ1-404 nömrəli şəhadətnamə ilə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində dövlət qeydiyyatına alınmış "Ağdaş şəhəri "Hacı İsmayıl" məscidi" dini icmasının təsisçilərinin 27 mart 2019-cu il tarixli ümumi yığıncağında 01 nömrəli protokolu ilə həmin dini icmanın ləğvi barədə qərar qəbul edilmişdir.***

***31.07.2007-ci ildə 1307Ağ1-404 nömrəli şəhadətnamə ilə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində dövlət qeydiyyatına alınmış "Ağdaş şəhəri "Hacı İsmayıl" məscidi" dini icmasına məxsus şəhadətnamə itdiyi üçün etibarsız sayılır.***

CƏMİYYƏT və DİN
№ 03 (332) / Mart 2019-cu il

# DÖVLƏT KOMİTƏSİ DİNİ İCMALAR ARASINDA MÜSABİQƏ ELAN EDİR

Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 96 illiyi münasibətilə **"Heydər Əliyev və milli-mənəvi dəyərlərimiz"** mövzusunda dini icmaların üzvləri arasında məqalə müsabiqəsi elan edir.

Müsabiqəyə milli-mənəvi dəyərlərimizin qorunması və gələcək nəsillərə çatdırılmasının əhəmiyyətindən, Ulu Öndərin Azərbaycançılıq ideologiyasına əsaslanaraq milli-mənəvi dəyərlər sistemimizin daha da gücləndirilməsi, aşınmadan xilas edilməsi, milli-mənəvi dəyərlərə qayıdış və milli oyanış sahəsində atdığı addımlardan bəhs edən məqalələr göndərilə bilər. Həmçinin Ulu Öndərin hakimiyyəti dövründə milli-mənəvi dəyərlərimizin ən önəmli komponentlərindən biri olan dini abidələrimizin bərpası və yenidən inşası, dini-ideoloji təhlükəsizliyin təmin edilməsi məqsədilə hüquqi-inzibati sferada zəruri addımlar atılması, məzhəbçilik, dini nifrət və ayrı-seçkiliyin ölkəmizə ayaq açmasının qarşısının alınması istiqamətində görülən işlərin işıqlandırıldığı məqalələr də qəbul olunur.

**1.Müsabiqənin şərtləri**

- Məqalə mövzuya uyğun olmalıdır;
- Müsabiqə elan olunduqdan sonra məqalə qəzet, informasiya agentlikləri və ya xəbər saytlarında dərc edilməlidir;
- Məqalənin həcmi 8 000 (səkkiz min) işarədən artıq olmamalıdır (1,5 aralıq məsafə ilə təxminən 3-4 A4 formatlı vərəq həcmində);
- Məqalə qəzetdə dərc olunarsa: A4 formatlı vərəqlərdə (Times New Roman 14 şrift) və 1 nüsxə qəzet şəklində Dövlət Komitəsinə təqdim olunmalıdır;
- Məqalə elektron media resursunda yayımlanarsa: A4 formatlı vərəqdə (Times New Roman 14 şrift) link əlavə edilərək çap olunmalı və Dövlət Komitəsinə təqdim edilməlidir.

**2. Mükafat**

I yer – 500 AZN
II yer – 400 AZN
III yer – 300 AZN
Hər biri 100 manat olmaqla üç həvəsləndirici mükafat

**3. Müsabiqənin müddəti: Məqalələr 2019-cu il 20 aprelədək təqdim edilməlidir.**

**Ünvan:** *Bakı şəhəri, Əhməd Cavad küç., 16*
**Əlaqə telefonları:** *(012) 505 78 16 / (012) 505 78 19*
**E-mail:** *redaksiya@scwra.gov.az*

# Nadir şahın hədiyyə etdiyi Quran Dağıstanda tapıldı

Dağıstanda Nadir şahın hədiyyə etdiyi Quran kitabı aşkar edilib.

Rusiya Elmlər Akademiyası Dağıstan Elmi Mərkəzinin Tarix, Arxeologiya və Etnoqrafiya İnstitutunun Şərq Əlyazmaları Fondunda rəqəmli arxiv yaradılması prosesi zamanı Nadir şahın Dağıstan hakimlərindən birinə hədiyyə etdiyi yeddicildlik Quran kitabı, İncilin VII əsrə aid gürcü dilinə tərcüməsi və digər unikal kitablar, sənədlər aşkar edilib.

Şərq Əlyazmaları Fondunun müdiri Şamil Şıxəliyev jurnalistlərə bildirib ki, tezliklə elektron kataloq yaradılacaq və arxivdə saxlanılan ümumilikdə 40 mindən çox əlyazmanın, o cümlədən 1009-cu ildən 1930-cu ilədək olan dövrdə müsəlman elmləri sahəsini əhatə edən 3 mindən çox əlyazmanın rəqəmsal surətləri internet istifadəçilərinə təqdim olunacaq.

## Yadigar söz

*Mustafa Kamal Atatürk*

***Milli mənliyini bilməyən millətlər başqa millətlərə yem olarlar.***

## Bakı və Abşeron üzrə namaz vaxtları (Aprel - 2019)

| Gün | Sübh azanı | Gün çıxır | Zöhr azanı | Əsr azanı | Axşam azanı | İşa |
|---|---|---|---|---|---|---|
| 1 | 05:03 | 06:25 | 12:45 | 17:14 | 19:19 | 20:21 |
| 2 | 05:01 | 06:24 | 12:44 | 17:14 | 19:20 | 20:22 |
| 3 | 05:00 | 06:22 | 12:44 | 17:15 | 19:21 | 20:24 |
| 4 | 04:58 | 06:20 | 12:44 | 17:16 | 19:22 | 20:25 |
| 5 | 04:56 | 06:19 | 12:44 | 17:16 | 19:23 | 20:26 |
| 6 | 04:54 | 06:17 | 12:43 | 17:17 | 19:24 | 20:27 |
| 7 | 04:52 | 06:16 | 12:43 | 17:18 | 19:25 | 20:28 |
| 8 | 04:51 | 06:14 | 12:43 | 17:18 | 19:26 | 20:30 |
| 9 | 04:49 | 06:12 | 12:42 | 17:19 | 19:27 | 20:31 |
| 10 | 04:47 | 06:11 | 12:42 | 17:20 | 19:28 | 20:32 |
| 11 | 04:45 | 06:09 | 12:42 | 17:20 | 19:29 | 20:33 |
| 12 | 04:43 | 06:08 | 12:42 | 17:21 | 19:30 | 20:35 |
| 13 | 04:41 | 06:06 | 12:41 | 17:22 | 19:31 | 20:36 |
| 14 | 04:40 | 06:05 | 12:41 | 17:22 | 19:32 | 20:37 |
| 15 | 04:38 | 06:03 | 12:41 | 17:23 | 19:33 | 20:39 |
| 16 | 04:36 | 06:02 | 12:41 | 17:23 | 19:34 | 20:40 |
| 17 | 04:34 | 06:00 | 12:40 | 17:24 | 19:36 | 20:41 |
| 18 | 04:32 | 05:59 | 12:40 | 17:25 | 19:37 | 20:42 |
| 19 | 04:31 | 05:57 | 12:40 | 17:25 | 19:38 | 20:44 |
| 20 | 04:29 | 05:56 | 12:40 | 17:26 | 19:39 | 20:45 |
| 21 | 04:27 | 05:54 | 12:39 | 17:27 | 19:40 | 20:46 |
| 22 | 04:25 | 05:53 | 12:39 | 17:27 | 19:41 | 20:48 |
| 23 | 04:24 | 05:51 | 12:39 | 17:28 | 19:42 | 20:49 |
| 24 | 04:22 | 05:50 | 12:39 | 17:28 | 19:43 | 20:50 |
| 25 | 04:20 | 05:49 | 12:39 | 17:29 | 19:44 | 20:52 |
| 26 | 04:18 | 05:47 | 12:39 | 17:30 | 19:45 | 20:53 |
| 27 | 04:17 | 05:46 | 12:38 | 17:30 | 19:46 | 20:55 |
| 28 | 04:15 | 05:44 | 12:38 | 17:31 | 19:47 | 20:56 |
| 29 | 04:13 | 05:43 | 12:38 | 17:31 | 19:48 | 20:57 |
| 30 | 04:12 | 05:42 | 12:38 | 17:32 | 19:50 | 20:59 |

**Bakı ilə digər şəhərlər arasındakı namaz vaxtı fərqləri *(dəqiqə)*:** Sumqayıt **+1**, Qobustan, Siyəzən, Neftçala **+3**, Astara, Qusar, Hacıqabul, Şabran, Şirvan, Salyan, Xaçmaz **+4,** Ağsu, Quba, Lənkəran, Masallı, Biləsuvar **+5,** Cəlilabad, İsmayıllı, Kürdəmir, Saatlı, Sabirabad, Şamaxı, İmişli, Lerik **+6,** Qəbələ, Göyçay, Yardımlı, Ucar, Zərdab **+8,** Ağdam, Ağdaş, Ağcabədi, Beyləqan, Bərdə, Füzuli, Qax, Oğuz, Mingəçevir, Yevlax **+10**, Balakən, Cəbrayıl, Goranboy, Tərtər, Qubadlı, Şəki, Şuşa, Zəngilan **+13**, Gəncə, Daşkəsən, Göygöl, Laçın, Gədəbəy, Kəlbəcər, Ordubad, Tovuz, Şəmkir, Zaqatala **+15**, Qazax, Naxçıvan, Ağstafa, Babək, Culfa, Şahbuz, Şərur **+18**, Marneuli (Tiflis) **+20.**

** Təqvim AMEA-nın Şamaxı astrofizika rəsədxanası tərəfindən hazırlanmış cədvəl əsasında tərtib olunmuşdur.*

# Türkiyədə 1300 il yaşı olan Tövrat nüsxəsi müsadirə olunub



Türkiyənin təhlükəsizlik xidmətinin əməkdaşları Afyonkarahisar vilayətində 1300 il yaşı olan Tövrat nüsxəsini müsadirə ediblər.

Polis əməkdaşları yəhudilərin müqəddəs kitabının ən qədim nüsxələrindən birini adı açıqlanmayan şəxsin avtomobilini yoxladıqları zaman aşkar ediblər. Türkiyə milli təhlükəsizlik xidmətinin göstərişi ilə avtomobilin sahibinin və həbs edilmiş daha 5 nəfərin adları gizli saxlanılır.

Dəri səhifələrdə yazılmış mətni və qalın dəri üzlüyü olan kitabın dəyərinin milyonlarla dollar olduğu bildirilir.

Baş redaktor **Səyyad ARAN**

**Redaksiya şurası:**
Şeyxülislam Allahşükür PAŞAZADƏ, Anar, Arxiyepiskop Aleksandr, Əflatun AMAŞOV, Gövhər BAXŞƏLİYEVA, Nizami CƏFƏROV, Vasim MƏMMƏDƏLİYEV, Raman DADAŞOV (Məsul katib).

**Ünvan:** AZ 1001, Bakı şəhəri, Əhməd Cavad küçəsi, 12
**Telefon:** 492 65 23; 437 31 15
**Tel/fax:** 497 15 39
492 58 29; 437 31 15
**E-mail:** redaksiya@scwra.gov.az

**Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin bölgələr üzrə müxbir məntəqələri:**
Bakı şəhəri üzrə şöbə - (012) 433 86 51
Sumqayıt bölgəsi üzrə şöbə - (018) 654 00 40
Lənkəran bölgəsi üzrə şöbə - (025) 255 39 84
Masallı bölgəsi üzrə şöbə - (025) 215 51 59
Şirvan bölgəsi üzrə şöbə - (021) 215 21 30
Quba bölgəsi üzrə şöbə - (023) 335 22 70
Ucar bölgəsi üzrə şöbə - (020) 235 50 97
Yevlax bölgəsi üzrə şöbə - (022) 336 55 95
Ağcabədi bölgəsi üzrə şöbə - (021) 275 52 00
Zaqatala bölgəsi üzrə şöbə - (024) 225 32 23
Şəki bölgəsi üzrə şöbə - (024) 244 03 16
Şamaxı bölgəsi üzrə şöbə - (055) 291 40 80
Gəncə bölgəsi üzrə şöbə - (022) 256 91 14
Tovuz bölgəsi üzrə şöbə - (050) 499 07 53
İmişli bölgəsi üzrə şöbə - (021) 246 62 99

Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

*Əlyazmalara rəy verilmir və onlar geri qaytarılmır.*

Aylıq qəzet
**Tiraj:** 1200
**Sifariş:** 355

Qəzet 7 may 2009-cu ildən nəşr olunur. *Azərbaycan Respublikası Ədliyyə Nazirliyində 19 mart 2009-cu ildə qeydiyyatdan keçmişdir. Qeydiyyat nömrəsi:* 2894